15_27 IYUl-QARA.qxd 4/23/2026 8:39 PM Page 1


# UNİKAL

№15 (2295) 24 aprel 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az


# TƏBİB-də çoxdan gözlənilən təmizləmə




Səh. 8



## Dövlət qurumunda korrupsiya əməliyyatı: saxlanılanlar var

*Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bir sıra rayon şöbələrində əməliyyatlar keçirib, saxlanılanlar var. "Unikal"ın xəbərinə görə, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdaş, Cəbrayıl, Saatlı, Bakının Qaradağ rayon şöbələrində əməliyyatlar keçirilib, vəzifəli şəxslər saxlanılıb. Əməliyyatlar nəticəsində saxlanılan vəzifəli şəxslər Bakıya gətirilib. Baş Prokurorluğun Mətbuat xidmətindən isə bildirilib ki, hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.*

Səh. 2

## "Cəmiyyətdə çox ciddi mənəvi aşınma, deqradasiya gedir"



*Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, son günlər məktəblərdə şagirdlər arasında baş verən insident hallarının səbəblərindən, sosial şəbəkələrdə baxdıqları videoların, oynadıqları oyunların şagirdlərin həyatına necə təsir etməsindən...*

Səh. 4

## Məktəblərdə kütləvi yoxlamalar başladı



*Azərbaycanın bir neçə rayonunun məktəblərində yuxarı sinif şagirdləri arasında kütləvi yoxlamalara start verilib. "Unikal" xəbər verir ki, yoxlamalar, əsasən, Abşeron rayonu, Sumqayıt şəhəri və ətraf ərazilərdə yerləşən təhsil müəssisələrini əhatə edir. Hüquq-mühafizə orqanlarının əməkdaşları məktəblərdə...*

Səh. 7

## Azərbaycan tolerantlıq və birgəyaşayışın simvoludur



*Bir neçə gün öncə ölkəmizdə yaşayan provaslav xristianları Müqəddəs Pasxa Gününü qeyd etdilər. Pasxa xristianların ən qədim və sevimli bayramlarından biridir. Çoxkonfensiyalı ölkəmizdə hər il bu bayram təntənəli şəkildə qeyd olunur. Bu il də ötən ildən fərqlənmədi. Azərbaycanda yaşayan xristianlar...*

Səh. 11

15_27 IYUl-QARA.qxd 4/23/2026 8:39 PM Page 2



# Rəqsanə İsmayılova barəsində qətimkan tədbiri dəyişdirilib



***Külli miqdarda ziyan vurmaqla dələduzluq etməkdə təqsirləndirilən müğənni Rəqsanə İsmayılova barəsində qətimkan tədbiri dəyişdirilib.***

"Unikal" xəbər verir ki, onun barəsində olan ev dustaqlığı qətimkan tədbiri polis nəzarəti altında olma qətimkan tədbiri ilə əvəz olunub.

Qeyd edək ki, müğənni Rəqsanə İsmayılova ötən ilin avqust ayında dələduzluq ittihamı ilə həbs edilib.

Vətəndaşlardan daxil olan şikayətlər əsasında polisin həyata keçirdiyi tədbirlər nəticəsində dələduzluq etməkdə təqsirli bilinən müğənni saxlanılıb.

Araşdırmalarla müəyyən edilib ki, o, iki nəfər zərərçəkən şəxsin ümumilikdə 35.000 manat dəyərində qızıl-zinət əşyalarını və 520.000 ABŞ dolları məbləğində pulunu dələduzluqla ələ keçirib.

Faktlarla bağlı Sabunçu Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin xüsusilə külli miqdarda ziyan vurmaqla dələduzluq etmə maddəsi ilə cinayət işi başlanılıb və R.İsmayılova təqsirləndirilən qismində saxlanılaraq istintaqa cəlb olunub. Onun barəsində məhkəmənin qərarı ilə 4 ay müddətində həbs qətimkan tədbiri seçilib.

Noyabr ayında isə Rəqsanə İsmayılova ev dustaqlığına buraxılıb. Sabunçu rayon Məhkəməsi onun barəsində olan həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması barədə qərar verib.

Dəymiş zərərin müəyyən hissəsinin (100 min manat) ödənilməsi və zərərçəkmişlərlə təqsirləndirilən Rəqsanə İsmayılova arasında olan qarşılıqlı razılığa əsasən, onun barəsində tətbiq edilmiş həbs qətimkan tədbiri məhkəmə tərəfindən ev dustaqlığı ilə əvəz olunub.

Cinayət işi üzrə polis tərəfindən istintaq tədbirləri davam etdirilir(apa).

# "Günlərdir gecələr yatmıram" - Lətifə



***Ötən gün "Dolunay" mahnısını və klipini təqdim edən müğənni Lətifə layihənin ərsəyə gəlməsindən danışıb.***

Milli.Az xəbər verir ki, sənətçi ekran işinin hazırlıqlarının xaricdə aparıldığını və buna görə günlərdir yuxusuz qaldığını bildirib. O, qeyd edib ki, Amerikada çalışan komandayla danışmaq üçün gecələri yatmayıb: "Neçə gündür gecələr yatmıram. Çünki videolar Amerikada hazırlanır. Onların saatı ilə işləyirik. Videolarımız razılıq almalıdır. Səhərə qədər oyaq qalırıq, "email"ləri və digər platformalarda aktiv olmalıyıq. Çox yoruldum".

Lətifə eyni zamanda Xalq artisti Aygün Kazımovanın 40 illik yaradıcılıq fəaliyyətinə həsr edilən "Best of Aygun 40" albomu üçün oxuduğu "Ya devuşka vostoçnaya" mahnısına hazırlanan klipdən danışıb. O, bildirib ki, həmin klipin də komandası Amerikada olduğu üçün gecələr yata bilmir. Saat fərqinə görə ifaçı komandayla gecələr iclas etməli olub. (Axşam.az)



## "Efirdə səmimi ola bilmirəm" - Lalə Məmmədova

***"Musiqidən xəbərsiz insanlar efirdən istifadə edir. İstəyir sevgi, istəyir səmimiyyət, istəyir nifrət - hər bir hissin sərhəddi olmalıdır".***

Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Lalə Məmmədova "İncə səhər" verilişində deyib. Müğənni verilişlərdə şəxsi həyatdan danışanları tənqid edib: "Efirdə azadlıq verilibsə, bunun da sərhəddi olmalıdır. Mən efirə çıxıram, amma evdə olduğum kimi səmimi ola bilmərəm. Bilirəm buranın sərhəddi hara kimidir. Siz məndən istəsəniz belə, səmimi ola bilmərəm. Səmimi yaradıcılığımda ola bilərəm. Gəlib ailəməişət mövzusunu təqdim etsəm, tamaşaçı mənə nə hörmət edər?".

## "Atam küçədə yıxılıb, heç kim ona yardım etməyib" - Nazilə Səfərli

***Şair Nazilə Səfərli mərhum atasından və onun xəstəliyindən danışıb.***



"Günorta efirdəyik" proqramında qonaq olan N.Səfərli onun küçədə yıxıldığını və heç kimin yardım etmədiyini bildirib: "Gözü görməyib və atam küçədə daşa ilişib yıxılıb, yarım saat qalıb bir insan ona yaxınlaşıb kömək etməyib. Qalxıb, kənardakılara deyib, siz nə qədər qəddar insanlarsınız. Tipimdə əyyaşlıq yoxdur ki... Bir insan qolumdan tuta bilərdi. Həkimə gedib, ona heç nə deməyiblər. Həkim bizə zəng etdi ki, atanızı filan yerə aparın. Artıq proses gedirmiş. Atamın gəncliyindən bir gözü yox idi, şüşə idi. Biz heç vaxt atamın gözünə baxmırdıq. Beynindəki şiş də onun görən gözünü tutubmuş, zəifləyib".

## "Qüdrət" illər sonra həmin yerə getdi

***Əməkdar artist Rafael İsgəndərov "Məhəllə" filminin çəkiliş məkanlarını ziyarət edib.***



Bu barədə sənətçi instaqramda görüntülər paylaşıb. Əməkdar artist Rafael İsgəndərov illər sonra "Məhəllə 2"nin Moskvada çəkildiyi hotelə yollanıb.

Layihədə "Qüdrət" obrazı ilə yadda qalan sənətçi ekran işinin lentə alındığı oteldən video paylaşaraq bu sözləri yazıb: "Bu film komediya janrında çəkilib. Amma bilmirəm siz necə, mən son zamanlar bu filmə baxanda çox kədərlənirəm".



## Vergi cinayətləri faktları üzrə 89 cinayət işi başlanılıb

***Bu ilin I rübündə Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsində vergi ödəməkdən yayınma, əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işçilərin işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi, saxta aksiz markalarını hazırlama, əldə etmə, saxlama, satma, habelə aksiz markası ilə markalanmalı olan məhsulları (malları) saxta aksiz markaları ilə markalama, saxlama və ya satma, aksiz markaları ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan satma, qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma faktları üzrə cəmi 89 cinayət işi başlanılıb.***

Bu barədə "Unikal"a Dövlət Vergi Xidmətindən məlumat verilib.

Belə ki, hesabat dövründə 23 nəfər barəsində 19 cinayət işi üzrə ittiham aktı baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib. İcraatına xitam verilmiş 12 cinayət işi, o cümlədən cinayət işinin başlanılması rədd olunmuş 51 material və ibtidai istintaqı tamamlanmış 5 cinayət işi üzrə 2.180,1 min manat məbləğində vurulmuş ziyanın dövlət büdcəsinə ödənilməsi təmin edilib. Bundan əlavə, hesabat dövründə icraatı davam edən cinayət işləri və materiallar üzrə dövlət büdcəsinə ümumilikdə 4.185,4 min manat məbləğində vurulmuş ziyanın ödənilməsi təmin olunub.

Müxtəlif sahələr üzrə, o cümlədən idxal, topdan və pərakəndə ticarət, istehsal, ictimai iaşə fəaliyyəti göstərən 14 vergi ödəyicisinə məxsus 19 obyektdə "Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar edilməsi" məsələsi üzrə operativ vergi nəzarəti tədbirləri həyata keçirilib və 9 vergi ödəyicisinə məxsus 10 obyektdə ümumilikdə 30 nəfər fiziki şəxsin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi faktları aşkar olunub. Həmin şəxslərin əmək hüquqları bərpa olunub və aidiyyəti vergi ödəyiciləri barəsində müvafiq tədbirlər görülərək ümumilikdə 60,0 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilib.

## Sabunçu Tibb Mərkəzi ona həvalə olundu



***Xəbər verdiyimiz kimi, Sabunçu Tibb Mərkəzinin direktoru Nurəngiz Başirova ötən gün işdən çıxarılıb.***

"Unikal"ın əldə etdiyi məlumata görə, Sabunçu Tibb Mərkəzinin direktoru vəzifəsinin icrası tibb müəssisəsinin direktorunun cərrahi xidmətlər üzrə müavini Kamil Hacıyevə həvalə edilib.

Xatırladaq ki, K.Hacıyev 2025-ci ilin iyul ayında Sabunçu Tibb Mərkəzinin direktor müavini vəzifəsinə təyinat alıb.

Qeyd edək ki, Sabunçu Tibb Mərkəzinin işdən çıxarılan sabiq direktoru Nurəngiz Başirova dəfələrlə qalmaqallı hadisələrlə bağlı gündəmə gəlib.

***Murad İbrahimli***

# TƏBİB-də çoxdan gözlənilən təmizləmə

## Azərbaycan səhiyyəsini ilk növbədə "xəstə kadrlardan" sağaltmaq lazımdır!

***Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyində (TƏBİB) rəhbər dəyişikliyinin ardından yüksək vəzifəli şəxslərin işdən azad edilməsinə başlanılıb. Belə ki, aparılan dəyişikliklər çərçivəsində qurumda rəhbər postlar tutanlar, eləcə də bir sıra iri tibb müəssisələrinin direktorları öz kresloları ilə vidalaşmaq məcburiyyətində qalıblar.***

İndiyədək vəzifələrindən azad edilənlərin arasında 2022-ci ildən "Yeni Klinika"nın direktoru işləyən Barat Yusubov, başqa bir mühüm tibb müəssisəsinin - Könül Ələkbərov da var.




Bundan başqa, Sabunçu Tibb Mərkəzinin direktoru Nurəngiz Başirova, Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinin direktoru Mirələm Cəlalov, Respublika Uroloji Xəstəxanasının direktoru Pərviz Hacıyev də işdən çıxıb.

Həmçinin, Abşeron Mərkəzi Rayon Xəstəxanasının direktoru Səkinə Sadıxova, Nərimanov Tibb Mərkəzinin direktoru Fazil Alməmmədov və Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisi Elçin Əmirov da vəzifələrindən uzaqlaşdırılıblar.

Bununla yanaşı, TƏBİB-in yeni icraçı direktoru Anar Bayramov tərəfindən imzalanan əmrlə qurum daxilində də dəyişikliklər aparılıb. Belə ki, müşavirlər - Elnur Qurbanov, Emil Qasımov, Pərvin Əkbərov, Vüqar Yaqublu, eləcə də Strateji inkişaf departamentinin rəhbəri Murad Mirzəyev vəzifələrindən azad ediliblər.

Əlbəttə, bu xəbərlər daha çox statistik məlumatlardır, lakin eyni zamanda Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyində həm kadr, həm də struktur baxımından ciddi dəyişikliklərə kəskin ehtiyac duyulduğunun isbatıdır. Reallıq bundan ibarətdir ki, Vüqar Qurbanovun adı çəkilən quruma rəhbərliyi merkantil maraqlar üzərində qurulub. TƏBİB-in sabiq rəhbərinin mühüm postlara müəyyən kadrları sırf şəxsi maraqlar üzərindən gətirdiyinə artıq heç bir şübhə yoxdur.

Bu da azmış kimi, həmin təyinatlar vətəndaşların sağlamlığını təmin etmək əvəzinə, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin əvvəlki rəhbərliyinin şəxsi (eyni zamanda merkantil!) maraqlarının ön plana çıxarıldığını bütün çılpaqlığı ilə ən adi detallaradək ortaya qoyub.

Halbuki istənuilən müstəvidə hər şey çox sadə idi: TƏBİB illər uzunudur ki, kimlərinsə sağlamlığını div ağzından qurtulmaq vasitəyə çevrilib.

### Vüqar Qurbanov TƏBİB-i necə "xəstələndirdi"?

Gəlin unutmayaq ki, sözügedən qurum səhiyyəni mərkəzləşdirmək və idarəetməni yaxşılaşdırmaq üçün yaradılmışdı.

Lakin əvvəlki yarıtmaz rəhbərliklərin daha çox formal xarakter daşıyan idarəçiliyi ucbatından:

- sistem dəyişmədi, köhnə idarəetmə üsulları qaldı;
- yeni model tam tətbiq olunmadı.

"İş o yerə çatdı ki, Vüqar Qurbanovun zamanında "köhnə ilə yeniiliyin qarışığı" adı altında qeyri-effektiv bir idarəçilik sistem yarandı. TƏBİB tamamilə xaotik quruma çevrildi. Ən biabırçısı isə o oldu ki, Qurbanov böyük hədəflərlə yaradılan bir qurumu öz varlanmasından ötrü vasitəyə çevrildi"- deyə "Unikal.az"a danışan mənbə bildirib.

Qaynağımız əlavə edib kli, TƏBİB yarandığı zamandanb etibarən öz üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlməyib. Əsas problemlərdən biri də insan faktorudur. Daha da dəqiqləşirsək, söhbət:

- peşəkar menecment çatışmazlığından;
- bəzi hallarda qeyri-şəffaf təyinatlardan;
- ən ağrılı olan isə təkcə tibbi deyil, inzibati yanaşmanın yanlış qurulmasından gedir.

Bütün bu qaranlıq işlər fonunda ən adi xəstəxana səviyyəsində belə tibbi xidmətin real keyfiyyəti şübhə altında qaldı. Pul sağlamlığı, vəzifə səhiyyəni arxa plana atdı.

### Hələ bu harasıdır?

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə əlaqəli model nəzəri baxımdan düzgün qurulsa da, xidmətlərin real dəyəri ilə ödənişlərin uyğun gəlmədiyi, həmçinin, xəstələrin hələ də qeyri-rəsmi ödənişlərlə üzləşdiyi ortaya çıxdı.

Halbuki, bu da səhiyyə sektorunda illərdir anons edilən islahatların əsas ideyasına və ruhuna ziddir.

Digər tərəfdən:

- rayon xəstəxanalarında avadanlıq və kadr çatışmazlığı qalır;
- üstəlik, xidmət keyfiyyəti bərabər səviyyədə deyil.

Sadalanalar mövcud tibbi sistemin ölkə üzrə effektiv işləmədiyini göstərir.

Nəticə etibarilə bir daha aydın olur ki,

- TƏBİB-də rəhbər dəyişikliyi qaçılmaz idi; qurumun öncəki rəhbərliyi ölkə səhiyyəsinin müsbət istiqamətində real addımlar atmaq əvəzinə, tutduqları postları şəxsi (və merkantil!) maraqlar naminə istifadə etməyin yollarını axtarıblar.

İkincisi: proseslərin gedişatı onu göstərir ki, böyük ümidlərlə yaradılan TƏBİB faktiki olaraq formal quruma çevrilib; onun əvvəlki rəhbərliyi sadəcə maddi-inzibati işlərin ardınca qaçıb, yekunda da aydın olub ki, TƏBİB Vüqar Qurbanov və komandası üçün "pullu işlər"dən ötrü vasitəyə çevrilib. Həmin vasitələrin sırası (siyahısı!) isə kifayət qədər genişdir: tibbi müayinələrin həyata keçirilməsindəki başpozuqluqdan tutmuş tibbi nəzarətdəki özbaşınalığadək!

Bir sözlə, TƏBİB-dəki genişmiqyaslı kadr islahatları artıq zamanın tələbidir. Bu tələbi başa düşməyənlərin, ya da başa düşmək istəməyənlərin cavabını isə adı çəkilən qurum daxilindəki islahatlar aydın şəkildə gözlər önünə sərəcək.

Qısası, TƏBİB-i sağaltmaq üçün də təbibə ehtiyac var!...

***Seymur Əli***

15_27 IYUl-QARA.qxd 4/23/2026 8:39 PM Page 4



# İran danışıqlara qayıtmasa, ataşkəs uzun sürməyəcək - TƏHLİL



***ABŞ Prezidenti Donald Tramp iki həftəlik ataşkəsin son saatlarında İran və Amerika arasında ataşkəsin uzadılmasını elan etdi.***

Görünür, ABŞ İrana iqtisadi blokadanın təsirlərini görmək üçün hələlik gözləmək niyyətindədir. Yəni, ABŞ-nin nöqteyi-nəzərindən hərbi əməliyyatlar məqsədlərinə çata bilməyib və onlar İrana qarşı iqtisadi blokadaya diqqət yetirmək istəyirlər. Bundan əlavə, Trampın yenidən hərbi əməliyyatlar aparmaqda artıq heç bir marağı yoxdur.

Çünki ABŞ İrandakı hədəflər bankında müəyyən etdiyi hədəflərin əksəriyyətini vurub.

Lakin İran İslam Respublikası hələ də qeyd-şərtsiz danışıqlar aparmaq və ya belə bir şəraitdə Vaşinqtona güzəştə getmək istəmir. Müharibənin ilk iki-üç günündə Tramp və Benyamin Netanyahu gözlənilməz və ilkin şok nəticəsində İranın çökəcəyinə ümid edirdilər. Bu gözlənti baş vermədi, əvəzində isə sistem və cəmiyyət öz möhkəmliyini göstərdi.

Belə bir vəziyyətdə, hərbi əməliyyatların artıq həlledici təsir göstərə bilməyəcəyi görünür. Əgər ABŞ yenidən müharibəyə girərsə, çox güman ki, İranın infrastrukturunu hədəf alacaq ki, bu da beynəlxalq səviyyədə onlara yaxşı təsir göstərməyəcək.

İran və amerikalılar danışıqların birinci mərhələsini birbaşa və hərtərəfli şəkildə keçirib. Sonda heç bir razılıq əldə olunmayıb və nəticəyə çatmaq üçün diplomatiyaya daha çox vaxt verilməlidir. Amerika tərəfi isə bu dəfə iqtisadi təzyiq tətbiq etməklə İranı danışıqlar masasına gətirə biləcəyinə inanır. Tehran isə danışıqlara başlamaq üçün dəniz blokadasının aradan qaldırılmasını tələb edir.

İslamabadda keçirilən son danışıqlar zamanı ABŞ İrandan təxminən 400 kiloqram uran tədarükünü qənimət kimi tələb edib. Tehranın danışıqlarda iştirak etməməsi yenidən döyüşlərin başlama ehtimalını artıra bilər. Çünki onlar uranın da təhvil verilməyəcəyini, bunun milli suverenlik məsələsi olduğunu dəfələrlə açıqlayıblar.

İrandakı hərbi qurumlarla siyasi qruplaşma arasındakı uçurum da əvvəlkindən daha aydın şəkildə özünü göstərir. Siyasətçilər kompromis əldə etməyə çalışsa da, SEPAH təzyiqləri artırır və hərbi güclə hədələyir.

Əgər İran danışıqlarda iştirak etməsə, ABŞ və İsrailin hərbi əməliyyatları bərpa etmə ehtimalı çox yüksək olacaq. Onlar bu vəziyyəti "çıxış strategiyası olmadığı halda müharibəni seçmək" kimi şərh edəcəklər.

Lakin Trampın siyasət tərzi gözlənilməz və dəyişən istiqaməti ilə məşhurdur. Buna görə də, bu müharibə çox tezliklə bitə bilər və ya daha da pisləşə bilər.

ABŞ lideri ataşkəs müddətinin qeyri-müəyyən olduğunu açıqlamasına baxmayaraq, ABŞ administrasiyası İrana danışıqlar masasına qayıtmaq üçün bir neçə gün vaxt verib. Əks halda düşmənçiliklər yenidən başlaya bilər. Tramp ataşkəsi daha üç-beş gün uzadıb ki, İran ABŞ ilə razılaşmaq istəyib-istəmədiyinə qərar verə bilsin.

Xatəmül-Ənbiya Mərkəzi Qərargahı isə ataşkəs fonunda elan etdi ki, hərbi qüvvələr 100% hazırlıq vəziyyətindədir və tətikdədir.

Bu arada, dünən BBC-yə verdiyi müsahibədə İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqayi İranın danışıqlara xoş niyyət və ciddiliklə girdiyini, lakin ciddilik və xoşməramlılıq göstərməyən danışıqlar tərəfi ilə qarşılaşdığını söylədi. O əlavə etdi ki, amerikalılar daim mövqelərini dəyişirlər. Diplomat İranın danışıqlarda iştirak etməyə razı olduğunu elan edib.

İndi İranla ABŞ arasında ataşkəs qeyri-müəyyən müddətə uzadıldığından, yaxın günlərdə üç ssenari ilə qarşılaşacağıq:

- Ataşkəs tərəflərin danışıqlar masasına qayıtmasını və İslamabadda ilkin çərçivə razılaşmasına gətirib çıxara bilər. Vaşinqtonun öhdəliklərindən imtina etməsi nəzərə alınmaqla, bu ssenari "əgər" və "amma" ilə doludur. Razılaşmanın ümumi çərçivəsi - uranın zənginləşdirilməsinin dayandırılması, Hörmüz boğazının açılması və sanksiyaların qaldırılması - müzakirə mövzusu olsa da, iki tərəf arasında dərin etimadın olmaması əsas maneədir. İran ciddi zəmanətlər almadan və blokadanı qaldırmadan yenidən danışıqlar masasına oturmaq istəmir.

- İkinci ssenariyə görə, qeyri-müəyyən müddətli ataşkəsin uzadılması Hörmüz boğazında dəniz blokadasının və toqquşmaların şiddətlənməsini artıracaq. Bununla da tərəflərdən biri sonda öz mövqeyindən geri çəkiləcək. Trampın ataşkəsin uzadılması qərarı təkcə humanitar və ya sadəcə diplomatik tədbir deyil, düşünülmüş maksimum təzyiq strategiyasının bir hissəsidir. Yəni Tramp İrana qarşı ciddi iqtisadi təzyiq göstərir. Əlbəttə ki, İran bu strategiyadan tam xəbərdardır və onu tələ hesab edir. Buna görə də, İran rəsmiləri dəfələrlə dəniz blokadası qaldırılana qədər danışıqlar masasına qayıtmayacaqlarını açıqlayıblar və bu blokadanı müharibə aktı və ataşkəsin açıq şəkildə pozulması hesab edirlər. Belə bir vəziyyətdə İran tərəfinin mövqelərindən geri çəkilib danışıqlar masasına qayıtması ehtimalı az görünür.

- Üçüncü ssenari isə ataşkəsin uzadılmasının uzun sürməməsi və bir neçə gündən sonra toqquşmaların yenidən başlamasıdır. Hörmüz boğazında toqquşmaların artması və ABŞ-nin dəniz blokadasının davam etməsi nəzərə alınmaqla, bu ssenari nəinki uzaq deyil, həm də İsrailin yanaşması və Vaşinqtona təzyiqi ilə çox yaxın ola bilər. Çünki Trampın ataşkəsin uzadılmasını elan etməsi ilə eyni vaxtda hərbi toqquşmalar nəinki dayanmadı, əksinə, daha da şiddətləndi. Buna görə də, bu gərginlik sonda ataşkəsin pozulmasına və iki tərəfin yenidən qarşı-qarşıya gəlməsinə səbəb ola bilər.

Belə bir atmosferdə vəziyyətin hara gedəcəyini görmək üçün daha bir-iki həftə gözləməkdə fayda var.

***Ağarza Elçinoğlu***

# Baş Prokurorluqda Geniş Kollegiya iclası keçirildi



***Aprelin 23-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası Baş Prokurorluğunda cari ildə görülmüş işlərə və qarşıda duran aktual məsələlərə həsr olunmuş Geniş Kollegiya iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, iclası giriş nitqi ilə açan Baş prokuror bildirib ki, dünyada və regionda müşahidə olunan mürəkkəb geosiyasi vəziyyət fonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması, hüquqi islahatların davam etdirilməsi, iqtisadi inkişafın dayanıqlığının təmin olunması və ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi istiqamətində ardıcıl siyasətin uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə sabitlik təmin edilməklə Azərbaycanın beynəlxalq nüfuzu daha da artıb. Eyni zamanda, prokurorluq orqanlarının aidiyyəti dövlət qurumları, o cümlədən hüquq-mühafizə orqanları ilə birgə fəaliyyəti nəticəsində qanunun aliliyinin təmin edilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlər həyata keçirilib.

Eyni zamanda "Şəhərsalma və Memarlıq İli" elan edilmiş 2026-cı ildə ölkəmizdə şəhərsalma və infrastrukturun inkişafı istiqamətində müasir şəhərsalma prinsiplərinin tətbiqi, dayanıqlı və təhlükəsiz yaşayış mühitinin formalaşdırılması, eləcə də işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının geniş tətbiqinin bu sahədə həyata keçirilən siyasətin əsas qayəsini təşkil etməsi vurğulanaraq, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinin və bunun məntiqi davamı olaraq soydaşlarımızın öz doğma yurd-yuvalarına intensiv formada köçünün təmin edilməsinin cari ildə də planlı şəkildə həyata keçirilməsi müsbət hal qismində qeyd edilib.

İclasda, həmçinin, bu müddət ərzində prokurorluq orqanlarında görülmüş işlər, əldə edilmiş nailiyyətlərdən bəhs edilərək xidməti fəaliyyətin təkmilləşdirilməsi, keyfiyyətinin daha da artırılması istiqamətində qarşıda duran əsas prioritetləri, o cümlədən Cinayət və Cinayət-Prosessual Məcəllələrində cinayət mühakimə icraatının elektron qaydada aparılması, elektron formada sübutlarla, onların toplanması, mühafizəsi və digər məsələlərlə bağlı edilmiş dəyişikliklərlə əlaqədar prosessual fəaliyyətdə tətbiqi zəruri əhəmiyyət kəsb edən təşkilati və hüquqi məsələlər diqqətə çatdırılıb.

Daha sonra Geniş Kollegiya iclasının gündəliyinə uyğun olaraq bir sıra aktual məsələlər müzakirə olunub.

İclasda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanları rəhbərlərinin üçüncü yüksək səviyyəli görüşünün təşkili ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə Baş prokurorun müavini Heydər Məmmədov məruzə ilə çıxış edərək cari ildə Azərbaycan Respublikasında keçirilməsi nəzərdə tutulan bu mötəbər tədbirin ölkəmizin beynəlxalq hüquq-mühafizə əməkdaşlığında fəal iştirakının və korrupsiyaya qarşı mübarizə sahəsində təşəbbüskar mövqeyinin göstəricisi olduğunu, həmçinin görüş çərçivəsində iştirakçı dövlətlər arasında təcrübə mübadiləsinin genişləndirilməsi, institusional əməkdaşlığın gücləndirilməsi və birgə fəaliyyət istiqamətlərinin müəyyən edilməsi baxımından mühüm nəticələrin əldə ediləcəyini vurğulayıb. Bundan başqa iclasda cinayət mühakimə icraatının elektron qaydada aparılması və elektron formada sübutlarla bağlı qanunvericiliyə edilmiş son dəyişikliklərdən irəli gələn vəzifələr ilə bağlı Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, İstintaq idarəsinin rəisi Nemət Əvəzov, əlaqədar digər məsələlərlə bağlı isə Kriminalistika və İnformasiya texnologiyaları idarəsinin İnformasiya texnologiyaları şöbəsinin rəisi Akif Məmmədyarov və Kibertəhlükəsizlik şöbəsinin rəisi Aydın Verdiyev, Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi Sahib İsmayılov, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunmuş vəzifəyə təyinata razılıq verilməsi ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov məruzələrlə çıxış ediblər.

Müzakirələr zamanı Kollegiya üzvləri və iclasa dəvət olunmuş şəxslər gündəliyə salınmış məsələlər ətrafında çıxış edərək təkliflərini səsləndirib, sonda gündəlikdə olan məsələlər üzrə müvafiq qərarlar qəbul olunub.

İclasa yekun vuran Baş prokuror cari ildə prokurorluq orqanlarının qarşısında duran kifayət qədər məsuliyyətli məsələlərin həlli istiqamətində hər bir prokurorluq əməkdaşının öz bilik və təcrübəsini səfərbər edəcəyinə, prosessual fəaliyyətin yeni mərhələyə keçidinin təşkili və icrası ilə bağlı qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gələcəklərinə və bundan sonra da hər zaman olduğu kimi qanunun aliliyinin təmin edilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi və dövlət maraqlarının qorunması istiqamətində fəaliyyətlərini ən yüksək tələblər səviyyəsində quracaqlarına əminliyini ifadə edib.

15_27 IYUl-QARA.qxd 4/23/2026 8:39 PM Page 5



# Prezident onu yenidən rektor təyin etdi



***Natiq Səhrab oğlu İbrahimov Lənkəran Dövlət Universitetinin rektoru təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Qeyd edək ki, o bu vəzifəyə ilk dəfə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2021-ci il aprelin 23-də təyin olunub.

# Dövlət qurumunda korrupsiya əməliyyatı: saxlanılanlar var



***Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bir sıra rayon şöbələrində əməliyyatlar keçirib, saxlanılanlar var.***

"Unikal"ın xəbərinə görə, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdaş, Cəbrayıl, Saatlı, Bakının Qaradağ rayon şöbələrində əməliyyatlar keçirilib, vəzifəli şəxslər saxlanılıb. Əməliyyatlar nəticəsində saxlanılan vəzifəli şəxslər Bakıya gətirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən isə bildirilib ki, hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Buraxılış imtahanının nəticələri elan olundu

***Tam (11 illik) orta təhsil səviyyəsi üzrə 15 mart 2026-cı il tarixində keçirilmiş buraxılış imtahanının nəticələri elan olunub.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib.

Bildirilib ki, imtahanda iştirak edən 11-ci sinif şagirdləri verilmiş keçidə daxil olaraq iş nömrəsi (8 rəqəmli şagird kodu) və şəxsiyyəti təsdiq edən sənədin nömrəsindən (və ya FİN kodundan) istifadə etməklə öz imtahan nəticələri, cavab vərəqinin qrafik təsviri, qapalı tipli tapşırıqların doğru cavabları, həmçinin hər bir ətraflı yazılı cavab tələb edən açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli, qiymətləndirmə şkalası və yazı işi nümunələri) ilə tanış ola bilərlər. İmtahan iştirakçıları iş nömrələrini buradan öyrənə bilərlər.

Şagirdlər imtahan nəticələri haqqında məlumatı (hər fənn üzrə ümumi balı), həmçinin mobil operatorlar (Azercell, Bakcell, Nar) vasitəsilə "iş nömrəsi"ni (8 rəqəmli şagird kodunu) 7727 nömrəsinə göndərməklə də öyrənə bilərlər.

**ELAN**

**Səhmdarların nəzərinə!**

**06.06.2026-cı il tarixində saat 12:00-da "Ağdam Dəzgahqayırma Zavodu" ASC-nin ümumi yığıncağı keçiriləcəkdir. Səhmdarların iştirakı xahiş olunur.**

**Ünvan: Ağdam rayonu, Mahrızlı kəndi.**

**Əlaqə nömrəsi: +994-70-238-11-22.**

**Elçin Hüseynov.**

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qazet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Bütün sosial ödənişlər yekunlaşacaq

***Bütün müavinət, təqaüd, kompensasiya və ünvanlı dövlət sosial yardımlarının aprelin 24-də ödənilməsi nəzərdə tutulub.***

Bu barədə "Unikal"a Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib.

Bildirilib ki, sabah respublika üzrə bütün sosial ödənişlər yekunlaşdırılmış olacaq.

# Azərbaycanda dövlət əmlakının uçotunda ciddi nöqsanlar aşkarlandı

***Azərbaycanda dövlət əmlakının registri üzrə normativ-hüquqi baza mövcud olsa da, aparılan təhlillər qeydiyyat və uçot sistemində ciddi çatışmazlıqların qaldığını ortaya çıxarıb.***




"Unikal" xəbər verir ki, bu barədə Hesablama Palatasının "Dövlət auditi" bülletenində bildirilir.

Sənədə əsasən, dövlət qurumlarının təqdim etdiyi registr məlumatlarının tam və dəqiq olmaması dövlət əmlaklarının icbari sığorta mexanizmi ilə faktiki əhatə dairəsinin müəyyən edilməsini çətinləşdirir.

Bəzi təşkilatların təqdim etdiyi göstəricilərin təhlili zamanı uyğunsuz hallara rast gəlinib. Belə ki, bir sıra hallarda texniki cəhətdən nasaz və faktiki istifadədə olmayan nəqliyyat vasitələrinin sığortalandığı, əksinə, istismarda olan və texniki baxımdan saz nəqliyyat vasitələrinin isə icbari sığortadan kənarda qaldığı müəyyən edilib.

Bundan əlavə, nəqliyyat vasitələrinin sığortası üzrə maliyyələşmə strukturunun təhlili göstərib ki, bir çox təşkilat bu istiqamətdə xərcləri "Azərbaycanın Vahid Büdcə Təsnifatı"nın tələblərinə uyğun icra etməyib.

Qeyd olunan nöqsanlar dövlət əmlakının idarə olunması və sığorta mexanizmlərinin effektivliyinə mənfi təsir göstərən əsas amillər kimi qiymətləndirilir.

# Milli Məclisin sədri çinli nazirlə görüşdü

***Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Çin Xalq Respublikası Dövlət İnternet-informasiya Ofisinin naziri Cuan Junvenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Bu barədə "Unikal" Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən xəbər verilib.

Sahibə Qafarova ötən ay Asiya üçün Boao Forumunun illik konfransında iştirakını xatırladaraq, konfrans çərçivəsində Çin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Cao Lici ilə keçirdiyi görüşü parlamentlərarası əlaqələrin inkişafı baxımından yüksək qiymətləndirib, aparılan danışıqlar zamanı əməkdaşlığın yeni istiqamətlər üzrə genişləndirilməsi barədə fikir mübadiləsi aparıldığını bildirib.

Söhbət zamanı Azərbaycanda həyata keçirilən rəqəmsal transformasiya siyasəti barədə də məlumat verilib.

Görüşdə eyni zamanda vurğulanıb ki, müasir dövrdə kibertəhlükəsizlik ölkələrin milli təhlükəsizliyinin mühüm tərkib hissəsidir və bu sahə daim diqqət mərkəzində saxlanılmalıdır.



Cuan Junven ölkəsinin Azərbaycanla bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığa böyük önəm verdiyini bildirib. Son illər Çinin informasiya texnologiyaları sahəsində əldə etdiyi nailiyyətlər barədə geniş məlumat verən nazir deyib ki, ölkəsi Azərbaycanla internet, kibertəhlükəsizlik, rəqəmsal iqtisadiyyat, süni intellekt və digər mühüm istiqamətlər üzrə əməkdaşlığı genişləndirməyə hazırdır. Azərbaycanda bu sahədə görülən işləri, habelə ölkə əhalisinin 90 faizdən artığının internetə əlçatanlığını yüksək qiymətləndirən qonaq bildirib ki, bu istiqamətdə əldə olunan nəticələr məmnunluq doğurur.

Söhbət zamanı tərəflər Azərbaycan ilə Çin arasında həqiqi dostluğa, qarşılıqlı hörmətə əsaslanan münasibətlərin bundan sonra da xalqların rifahı naminə bütün istiqamətlərdə uğurla inkişaf edəcəyinə əminlik ifadə ediblər.

# İTV-nin baş direktoru vəzifəsinə sənəd qəbulu elan edildi

***Ictimai Televiziya və Radio Yayımları Şirkətinin ba. direktoru vəzifəsinə sənəd qəbulu elan edilib.***

Bu barədə "Unikal"a Audiovizual Şuradan məlumat verilib.

Bildirilib ki, İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru vəzifəsini tutmaq istəyən namizədlər sənədlərini 27 aprel 2026-cı il saat 9.00-dan 8 may 2026-cı il saat 18.00-dək Azərbaycan Respublikası Audiovizual Şurasına (ünvan: Bakı şəhəri, A.M. Şərifzadə küçəsi 315) təqdim etməlidirlər.

Namizədə dair tələblər sırasında aşağıdakılar qeyd olunub:

"Namizəd Azərbaycan Respublikasının vətəndaşı olmalıdır. Namizəd ali təhsilli olmalıdır.

Əvvəllər ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə məhkum edilmiş, həmçinin məhkumluğu ödənil məmiş şəxs namizəd ola bilməz.

Fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq olunmuş şəxs namizəd ola bilməz".

Təqdim olunmalı sənədlər kimi ərizə, şəxsiyyət vəsiqəsinin surəti, əmək kitabçasının surəti, kadrların şəxsi uçot vərəqi (fotoşəkil ilə), ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiq olunmuş surəti qeyd olunub.

Bildirilib ki, qeyd olunan sənədlər 2 nüsxədə təqdim olunmalıdır.

Qeyd edək ki, Baş direktor Yayım Şurası tərəfindən 4 il müddətinə seçilir. Hazırda İTVnin baş direktoru Balakişi Qasımovdur.

# İlqar Namazov işdən çıxarıldı

***Naxçıvan Şəhər Ticarət və Xidmət Departamentinin direktoru işdən azad olunub.***

"Unikal" xəbər verir ki, Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini, icra başçısının vəzifələrini müvəqqəti icra edən Əhməd Vəliyev bununla bağlı əmr imzalayıb.

Əmrə əsasən, Naxçıvan Şəhər İcra Hakimiyyətinə tabe olan Naxçıvan Şəhər Ticarət və Xidmət Departamentinin PHŞ-in direktoru Namazov İlqar Hüseyn oğlu öz ərizəsi əsasında tutduğu vəzifədən azad edilib.



15_27 IYUl-QARA.qxd 4/23/2026 8:39 PM Page 6



# Prezident Ağsaqqallar Şurasının IX Qurultayının iştirakçılarına müraciət ünvanladı

***Prezident İlham Əliyev Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının iştirakçılarına müraciət ünvanlayıb.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir:

"Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının işə başlaması münasibətilə ürəkdən təbrik edirəm.



Azərbaycan xalqının qədim mənəvi-əxlaqi dəyərlərinə söykənən ağsaqqallıq ənənəsi milli irsimizin ən mühüm dayaqlarından biridir. Ağsaqqallara hörmət həm Azərbaycan şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatında fundamental bir dəyər kimi daim ön planda yer alır. Təsadüfi deyil ki, xalqımızın tarixi keçmişini, adət-ənənələrini əks etdirən "Kitabi-Dədə Qorqud" dastanında ağsaqqal nəsihətinə və sözünə ehtiram ən yüksək əxlaqi keyfiyyət kimi təsvir olunub.

Xalqımızın tarixi ənənələrini rəhbər tutaraq üzərilərinə düşən vacib missiyanı daim uğurla həyata keçirən ağsaqqallarımız cəmiyyətdə əxlaqi-mənəvi dəyərlərin qorunub saxlanmasının və nəsillərarası varisliyin təminatçısı olaraq çıxış edirlər. Eyni zamanda milli dövlətçilik ənənələrinin davam etdirilməsi və vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində ağsaqqallarımızın müstəsna xidmətləri vardır.

Məhz ağsaqqallarımızdan vətənpərvərlik və fədakarlıq tərbiyəsi alan gənclərimiz Vətən müharibəsində şanlı Zəfərimizin əldə olunmasında mühüm rol oynayıblar. 30 ildən çox torpaq həsrəti ilə yaşamış, müharibənin ağrı-acısını görmüş böyüklərimizin gənc nəslə aşıladığı milli qürur və Vətən sevgisi sayəsində xalqımızın müasir hərb tarixinə yeni bir səhifə yazıldı.

Sevindirici haldır ki, bu gün ağsaqqallarımız ölkə həyatının bütün sahələrində fəal iştirak edirlər. Dünyada artan təhdidlər, xüsusilə də qloballaşma və sosial şəbəkə platformalarının zərərli təsirləri nəticəsində bir çox ölkələrdə milli-mənəvi və ailə dəyərlərinin deformasiyaya uğraması Azərbaycanda mövcud olan ağsaqqallıq institutunun əhəmiyyətini və rolunu daha qabarıq şəkildə vurğulayır. Gənclərimizi milli vətənpərvərlik və öz köklərinə bağlı ruhda yetişdirmək, onları düzgün yola istiqamətləndirmək ağsaqqallarımız qarşısında duran əsas vəzifələrdən biridir.

Keçən əsrin sonlarında yaranan və sıralarında həyatını cəmiyyətə xidmətə həsr etmiş tanınmış xadimləri birləşdirən Azərbaycan Ağsaqqallar Şurası böyük yol keçərək bu gün də ölkəmizin inkişafına töhfə verir. Şura ölkənin ictimai-siyasi və humanitar inkişafında, cəmiyyət həyatının aktual məsələlərinin həllində və gənc nəslin tərbiyəsində iştirak edir.

İnanıram ki, IX Qurultayda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar Ağsaqqallar Şurasının fəaliyyətinin təkmilləşdirilməsinə, ölkənin ictimai-siyasi həyatında təşkilatın rolunun daha da güclənməsinə xidmət edəcəkdir.

Qurultayın işinə uğurlar, hər birinizə isə möhkəm cansağlığı, uzun ömür, dəyərli ictimai fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram".

# İşğal dövründə mədəni irsimiz necə məhv edilib...

***Cənubi Qafqaz tarixən müxtəlif mədəniyyətlərin kəsişdiyi məkan olub və bu coğrafiyada formalaşan memarlıq irsi də həmin çoxqatlı tarixi əks etdirir. Bugünkü Ermənistan ərazisində, xüsusilə İrəvan və ətraf bölgələrdə əsrlər boyu Azərbaycan-türk müsəlman mədəniyyətinə aid çoxsaylı abidələrin mövcud olduğu tarixi mənbələrdə geniş şəkildə qeyd olunur. Lakin XX əsr ərzində baş verən siyasi dəyişikliklər, müharibələr və ideoloji yanaşmalar nəticəsində bu irsin böyük hissəsi günümüzə gəlib çatmayıb.***

Tarixi sənədlər və araşdırmalar göstərir ki, XVI-XVIII əsrlərdə İrəvan şəhəri mühüm inzibati və ticarət mərkəzlərindən biri olub. Bu dövrdə şəhərdə Şah Abbas, Sərdar, Hacı Novruzəli kimi məscidlər fəaliyyət göstərib, eyni zamanda karvansaralar, hamamlar və digər memarlıq nümunələri şəhərin simasını formalaşdırıb. Bu tikililər həm də sosial və mədəni həyatın əsas elementlərindən biri idi. Lakin sonrakı dövrlərdə bu abidələrin böyük hissəsi ya dağıdılıb, ya da zamanla tamamilə yoxa çıxıb.

Bu gün həmin irsdən qismən qorunub saxlanılan nadir nümunələrdən biri Göy məscid hesab olunur. Bununla belə, onun ilkin funksiyası və tarixi kimliyi ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Məscidin hazırda daha çox mədəni obyekt və muzey kimi təqdim olunması da bu müzakirələri daha da aktuallaşdırır.

SSSRi dövründə isə dini tikililərə qarşı ümumi mənfi münasibət hökm sürürdü və bu siyasət yalnız müsəlman abidələrinə deyil, digər dini obyektlərə də təsir edirdi. Bir çox məscidlər anbar, klub və ya digər təsərrüfat məqsədləri üçün istifadə olunur, bəziləri isə tamamilə dağıdılırdı. Bu proses nəticəsində regionun dini-mədəni xəritəsi ciddi şəkildə dəyişib.



Sovet İttifaqının dağılmasından sonra isə vəziyyət yeni siyasi reallıqlar fonunda daha fərqli istiqamətdə inkişaf etməyə başladı. Azərbaycan və Ermənistan arasında münasibətlərin kəskinləşməsi Ermənistanın Azərbaycana məxsus mədəni irsinə qarşı hücumu ilə nəticələndi.

Son illərdə regionda sülh danışıqlarının intensivləşməsi fonunda mədəni irs məsələsi yenidən aktuallaşıb. Ekspertlər hesab edir ki, davamlı sülhün təmin olunması üçün yalnız siyasi razılaşmalar kifayət deyil. Tarixi yaddaş, mədəni irs və qarşılıqlı hörmət kimi amillər də bu prosesin ayrılmaz hissəsidir. Xüsusilə, itirilmiş və ya dəyişdirilmiş abidələrin taleyinə obyektiv yanaşma, onların bərpası və qorunması istiqamətində addımlar etimad mühitinin formalaşmasına töhfə verə bilər.

Bu baxımdan, Ermənistan ərazisində Azərbaycan irsinin qorunması iki ölkə arasındakı gələcək münasibətlərin açarıdır. Bu irsin necə qiymətləndiriləcəyi, qorunacağı və ya bərpa ediləcəyi regionda uzunmüddətli sabitliyin və əməkdaşlığın mühüm göstəricilərindən biri kimi çıxış edir. Eyni zamanda isə işğal dövründə Qarabağ və Şərqi Zəngəzur bölgəsində yerləşən müxtəlif tarixi, dini abidələrimizin xarabalıqlar içərisində saxlanılması unudulmayacaq yaddaşdır.

## Rəsmi Bakı: "Azərbaycan-Türkiyə strateji müttəfiqliyi daha da güclənir"



***23 Aprel - Milli Suverenlik və Uşaq Bayramı münasibətilə qardaş Türkiyəni səmimi qəlbdən təbrik edirik.***

"Unikal" xəbər verir ki, bu, Azərbaycan Xarici İşlər Nazirliyinin təbrikində əksini tapıb.

"Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün uşaqlara bəxş etdiyi bu gün sülhün, dostluğun və gələcəyə ümidin rəmzi kimi xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan və Türkiyə arasında "Bir millət, iki dövlət" prinsipi ilə möhkəmlənən qardaşlıq və strateji müttəfiqlik münasibətləri bu kimi dəyərlər üzərində daha da güclənir. Əminik ki, ortaq tariximiz, mədəniyyətimiz və dəyərlərimiz gələcək nəsillərə də eyni birlik və həmrəylik ruhunu aşılayacaq. Bu əziz gündə qardaş Türkiyəyə sülh, rifah və davamlı inkişaf, bütün uşaqlara isə sağlam, xoşbəxt və parlaq gələcək arzulayırıq", - təbrikdə qeyd edilib.

## Bakı metrosunda qatarların hərəkəti tam bərpa olundu



***"Bakı Metropoliteni" QSC-də qatarların hərəkəti tam bərpa olunub və sistem tam gücü ilə fəaliyyət göstərir.***

"Unikal" səhmdar cəmiyyətinə istinadən xəbər verir ki, bütün xətlər üzrə hərəkət stabil təşkil edilir.

Qatarlar mövcud texniki imkanlar çərçivəsində ən sıx qrafiklə işləyir.

Texniki sistemlər üzərində nəzarət gücləndirilib, monitorinq fasiləsiz davam edir.

## "Heç bir hazırlığa getməmişəm" - 300 bal toplayan Emiliya



***Xəbər verdiyimiz kimi, mart ayının 15-də tam (11 illik) orta təhsil səviyyəsi üzrə keçirilən imtahanda 9 nəfər 300 bal toplayaraq ən yüksək nəticə göstərib.***

"Unikal"ın məlumatına görə, maksimal nəticə göstərənlər arasında Qusar rayonundan olan şagird də var.

O, Qusar rayonunun Yuxarı Zeyxur kənd orta məktəbinin şagirdi Emiliya Vitalik qızı Qayıbovadır.

E.Qayıbova bu barədə "Unikal"a verdiyi açıqlamada heç bir kurs və ya hazırlığa getmədiyini deyib: "Sadəcə məktəb müəllimlərimin zəhməti var üzərimdə. Bu üç fənn və digər fənlər üzrə bünövrəmi yaxşı qoymuşam. Ya 9-cu sinifdə, ya 11-ci sinifdə hazırlığa getmək ehtiyacı duymamışam. Çünki məktəbimizdə kifayət qədər yaxşı təhsil verilir.

9-cu sinifdə bu arzum yarımçıq qalmışdı. 300 baldan 297 balım olmuşdu, sadəcə bir sualı səhv etmişdim. 11-ci sinifdə isə bu arzumu gerçəkləşdirdim".

O, imtahan suallarının orta səviyyədə olduğunu bildirib: "Sadəcə Azərbaycan dili fənnindən mətn tapşırıqlarında vaxt aparan suallar var idi. Amma ümumən orta səviyyəli suallar idi, yazmaq olardı.

Xarici dilim rus dili olduğu üçün bu dildən imtahan verdim. Azərbaycan dilinə nəzərən xarici dil daha rahat idi".

E.Qayıbova həmçinin bildirib ki, 1-ci ixtisas qrupu üzrə hazırlaşır və kompüter elmləri ixtisasına yiyələnmək istəyir.

***Ağarza Elçinoğlu***

15_27 IYUl-QARA.qxd 4/23/2026 8:39 PM Page 7



# "Cəmiyyətdə çox ciddi mənəvi aşınma, deqradasiya gedir"

## Ceyhun Məmmədov: "Bu istiqamətdə həyəcan təbili çalmağın vaxtı çoxdan çatıb"

***Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, son günlər məktəblərdə şagirdlər arasında baş verən insident hallarının səbəblərindən, sosial şəbəkələrdə baxdıqları videoların, oynadıqları oyunların şagirdlərin həyatına necə təsir etməsindən, valideynlərin övladlarının tərbiyəsinə vaxt ayırmamasından və s. məsələlərdən danışıb.***

***-Ceyhun müəllim, son günlər məktəblərdə şagirdlər arasında bir neçə insident baş verib. Belə ki, paytaxtda yerləşən məktəblərdən birində şagird sinif yoldaşının üzərinə spirt tökərək yandırıb. Ağstafada isə 8-ci sinif şagirdinə bıçaqla xəsarət yetirilib. Bundan əvvəl də belə hallara rast gəlinib. Şagirdlərin bu cür addımlar atmasının səbəbi nədir?***

-Bu məsələnin kökündə ümumilikdə tərbiyə sisteminin pozulması dayanır. Bu gün valideynlər qarşılarına əsas hədəf və məqsəd kimi yalnız uşaqlara təhsil verməyi qoyublar. Hamı çalışır ki, ancaq uşağı savadlı, bilikli olsun. Amma tərbiyə məsələsi geridə qalıb. Valideynlərin bir hissəsinin övladına tərbiyə vermək üçün yetərli tərbiyəsi yoxdur. Bəzilərinin zamanı yoxdur. Bəziləri isə zamanları olsa da, vaxt ayırmaq istəmirlər. Deyə bilərik ki, indiki gənclərin, uşaqların çoxu taleyin ümidinə buraxılıb. Gənclərlə söhbət etdikdə, müzakirə apardıqda, onların özləri də bu fikirləri bildirəcəklər ki, özlərini tək hiss edirlər. Əlavə olaraq süni intellekt, sosial media onlara təsir göstərir. Bu gün uşaqlar tərbiyəni sosial mediadan alırlar, dostu süni intellektdə axtarırlar. Demək olar ki, məktəblə valideynlər arasında ünsiyyət qopub. Tərbiyə işi elədir ki, məktəblə valideyn arasında ciddi əməkdaşlıq olmalıdır. Bu iş birliyi, əməkdaşlıq arzuolunan səviyyədə deyil. Valideynlər övladlarını çox ərköyün böyüdürlər. Onların bütün istəklərini yerinə yetirməyə çalışırlar. Onların yerinə bütün işləri özləri görmək istəyirlər. Nəticə etibarı ilə bu gün elə uşaqlar yetişir ki, onlar çox ərköyündürlər, sosial medianın təsiri altındadırlar, qayğını görmürlər, valideynlərindən yetərli enerjini almırlar. Ona görə bu problemləri görürük. İndidən bu barədə ciddi düşünməli, təhlil aparmalıyıq. Qarşıda bizi çox çətin günlər gözləyir. Yəni, indidən dediyimiz məsələləri həll etməsək, bunun üzərinə düşməsək, getdikcə bu cür hadisələrin, insidentlərin sayı artacaq. Dediyimiz faktlar həm də uşaqların psixologiyasının pozulmasına aparıb çıxarır. Onların radikallaşmasına, müxtəlif yanlış təsirlərin altına düşməsinə aparır. Eyni zamanda, bu gün uşaqlar çox yüklənib, əksəriyyəti depresiyadadır. Günün birinci hissəsini məktəbdə, ikinci hissəsini isə müəllim yanına gedirlər. İstirahət edə bilmirlər. Bəzən valideynlər övladlarına ciddi təzyiq göstərirlər. Bütün bunlar qeyd etdiyimiz prosesə təsirini göstərir.

***-Siz də sosial medianın təsirlərini qeyd etdiniz. Hazırda sosial şəbəkələrdə baxdıqları videolar, müxtəlif internet oyunları məktəblilərin, gənclərin həyatına çox təsir edir. Qanunvericilikdə bu istiqamətdə hansısa dəyişiklik edilə bilərmi?***



-Uşaqlara ən çox təsir edən məsələlərdən biri də internet oyunlarıdır. "Mavi balina" və s. bir neçə oyunlar var ki, bunlar uşaqlara çox pis təsir edir. Təəssüf ki, ölkəmizdə bu oyunlara sərbəst çıxış imkanı var. İstənilən gənc rahat şəkildə bu oyunları oynaya bilər. Sonra həmin gəncləri başqa yollara aparırlar və onların həyatını məhv edirlər. Bir müddət əvvəl bu məsələlərlə bağlı cənab Prezident İlham Əliyevin sərəncamı oldu. Nazirlər Kabinetinə tapşırıq verildi. Sosial mediadan istifadə, yaş məhdudiyyəti ilə bağlı məsələlər və s. Bu istiqamətdə müəyyən addımların atılmasına başlanılıb. Parlamentdə bəzi qanunlarda dəyişikliklər edilib. Gələcəkdə müəyyən dəyişikliklərin edilməsi nəzərdə tutulur. Biz təhsildə tərbiyə işinə xüsusi önəm verməliyik. Təəssüflə qeyd etmək lazımdır ki, tərbiyə işi ailələrdə, məktəblərdə arxa plana keçib. Biz düşünürük ki, bütün günah sosial mediadadır. Yəni, sosial medianı qadağan etsək, hər şey düzələcək. Xeyr, bu belə deyil. Sözsüz ki, bunun müəyyən təsirini görə bilərik. Amma bu da tam çıxış yolu deyil. Tərbiyə işi gücləndirilməli, tərbiyə mühiti yaradılmalı, uşaqlara və onların istirahətinə vaxt ayrılmalıdır. Uşaqlar həm də mənəvi boşluq yaşayırlar. Bu mənəvi boşluq doldurulmalıdır. Ailələr indi nə qədər övladlarına vaxt ayırırlar? Biz uşaqları deyirik, böyüklərin özləri telefondan asılı hala gəliblər. Telefonla yatıb-dururlar. Məktəblərdə müəllim missiyasını dərsini keçməklə bitmiş hesab edir. Bu, yetərli deyil. Tərbiyə işi düzgün qurulmasa, heç bir ciddi nəticə əldə edə bilməyəcəyik. Tərbiyə işini gücləndirməliyik ki, dediyimiz məsələlərin qarşısını ala bilək. Lazım olan tərbiyə mühiti və şəxsiyyətin yetişdirilməsidir.

***-Tərbiyə məsələsini xüsusi vurğuladınız. Bəzi valideynlər düşünür ki, məktəb uşağın həm təhsili, həm də tərbiyəsi ilə məşğul olmalıdır. Həmçinin, son illər ölkəmizdə boşanmaların sayının artması da uşaqların tərbiyəsinə ciddi təsir göstərir. Ailələr bu istiqamətdə hansı addımlar atmalıdır?***

-Bizim cəmiyyətdə çox ciddi mənəvi aşınma, deqradasiya gedir. Cəmiyyət olaraq yanlış yolda, yanlış istiqamətdə gedirik. Azərbaycanda boşanmalar sürətlə artır, amma təəssüf ki, bu heç kimi narahat etmir. Boşanmalarla bağlı rəqəmlərə baxanda, ciddi artımın olduğunu görürük. Milli-mənəvi dəyərlərimizdən uzaqlaşırıq. Milli-mənəvi dəyərlərin qorunması ilə bağlı proqram qəbul etməliyik. Ailə dağılırsa, bütün hallarda olmasa da, əksər hallarda uşaqların tərbiyəsinə ciddi təsir göstərəcək. Ailələrin bir hissəsi boşanır, bir hissəsi bir yerdə yaşasa da boşanmış kimidirlər. Bunlar həmin prosesə təsir göstərir. Bizi qarşıda daha bir ciddi təhlükə gözləyir. İndiki gənclər ailə qurmaq istəmir. Hesab edirlər ki, buna ehtiyac yoxdur. Televiziyalarımız bu prosesdə müsbət heç nə etmir. Biz istəyirik ki, tərbiyəli gənclik yetişdirək. Tərbiyəli gənclik yetişdirmək üçün nə edirik? Ailələrdə, televiziyamızda bu yoxdur. Məktəblərdə də arzuolunan səviyyədə deyil. Gözləsək ki, göydən tərbiyə gəlib uşaqların beyninə, düşüncəsinə düşəcək, bu, mümkün olan məsələ deyil. Bu istiqamətdə həyəcan təbili çalmağın vaxtı çoxdan çatıb. Hələki nələrsə etmək imkanımız var. Bir müddətdən sonra ciddi formada gecikdiyimizin şahidi olacağıq. Bu da cəmiyyətdə dəyərlər sisteminin sıradan çıxmasına gətirib çıxaracaq və ciddi problemlər yaradacaq.

***-Uşaqların günün birinci yarısı dərsə, ikinci yarısı isə müəllim yanına getdiyini bildirdiniz. Belə olan halda uşaqlar özlərinə vaxt ayıra bilmirlər. Son illər isə repetitorluq geniş vüsət alıb. Bunun qarşısının alınması üçün hansı addımların atılmasına ehtiyac var?***

-Təhsilimizdə ən böyük problemlərdən biri repetitorluqdur. Bu istiqamətdə ciddi addımın atıldığını görmürük. Uşaqların depresiyada və gərgin olmasının səbəblərindən biri də budur. Bu yaxınlarda bir qrup məktəbli ilə görüşdüm. Onlara tövsiyə verirdim. Bir neçə gənc bildirdi ki, siz bizə tövsiyə, istiqamət verirsiz, amma bizim vaxtımız yoxdur. Yəni, günün birinci hissəsini məktəbdə, ikinci hissəsini isə müəllim yanında oluruq. Səhərdən axşama qədər təzyiq altındayıq. Bir tərəfdən də valideyn daim uşağı sıxır ki, sən oxumalısan, universitetə qəbul olmalısan. Universitetə qəbul olmasan evə gəlmə və s. Bu uşaqların çoxu depresiyadadır. Uşaq arada dincəlməli, oynamalı, istirahət etməlidir. Bu gün biz uşaqların uşaqlığını əlindən almışıq. Repetitorluq məsələsinin həll etməyin qeyri-mümkün olması fikri ilə razı deyiləm. Düşünürəm ki, bunu həll etmək mümkündür. Çıxış yolu ondadır ki, məktəblərdə təhsilin səviyyəsi daha da artırılmalıdır. Eyni zamanda repetitorluğun məktəblərdə təşviq olunmasının qarşısını almalıyıq. Gələcəyə doğru repetitorluqla bağlı müəyyən inzibati tədbirləri nəzərdən keçirməliyik. Burada müəyyən problem özünü göstərir və bunun həlli üçün müəyyən hallarda inzibati tədbirlərə baxmalıyıq ki, bu prosesi tənzimləyək. Elə sistem qurmalıyıq ki, repetitorluğa ehtiyac olmasın.

***Anar Kəlbiyev***

15_27 IYUl-QARA.qxd 4/23/2026 8:39 PM Page 8



# Mərhum nazirin ailə şirkətləri "əl dəyişdirməyə" başlayır

## "AtaSığorta" ləğv edilir, növbədə hansı şirkətdir? - İki böyük holdinqin gələcəyi maraq doğurur

***"AtaSığorta" sığorta şirkətinin sığorta portfeli "Atəşgah Sığorta" şirkətinə ötürülüb. Belə ki, "AtaSığorta" ilə vətəndaşlar arasında bağlanmış sığorta müqavilələri aprelin 10-dan etibarən "Atəşgah Sığorta Şirkəti" ASC-yə ötürülüb.***

Bu o deməkdir ki, indiyədək əmlakı və ya məsuliyyəti "AtaSığorta"da sığortalanan vətəndaş hər hansı bir sığorta hadisəsi ilə üzləşərsə və ya hər hansı bir müraciəti olarsa, bununla bağlı artıq "Atəşgah Sığorta" şirkətinə müraciət etməli olacaq.

"Apa"nın xəbərinə görə, bildirilib ki, yuxarıdakı qayda "Sığorta fəaliyyəti haqqında" Qanunun 72-ci maddəsi ilə tənzimlənir.

Qeyd edək ki, ötən ilin sonuna "AtaSığorta" şirkətinin yığım portfelinin həcmi 10 milyon 31 min manat olub. Yanvarın 6-da isə Mərkəzi Bank sığorta şirkətinin sığorta satışlarını məhdudlaşdırıb və ASC-yə müvəqqəti inzibatçı təyin etmişdi. Sığorta şirkətinin öhdəliklər üzrə portfelinin digər sığorta şirkətinə ötürülməsi o deməkdir ki, AMB qısa zamanda sığorta şirkətinin lizensiyasını da ləğv edəcək.

Xatırladaq ki, "AtaSığorta" ASC mərhum vergilər naziri Fazil Məmmədova məxsus olub. 2000-2017-ci illərdə vergilər naziri vəzifəsini icra edən F.Məmmədov 2022-ci ildə Türkiyədə vəfat edib.

"Unikal"ın araşdırmasına görə, Fazil müəllimin vəfatından sonra onun ailə şirkətlərinin taleyi maraq doğururdu. Bu şirkətlərin bəzilərinin "əl dəyişdirəcəyinə" dair təxminlər vardı. Lakin bu ehtimallar doğrulmadı. Hazırda da həmin şirkətlərin əksəriyyəti mərhum nazirin yaxın qohumları tərəfindən idarə olunur. Məsələn, "Snergy Group" MMC 50 milyon manat nizamnamə kapitalına malikdir və qanuni təmsilçisi Binəqədi rayon İcra Hakimiyyətinin sabiq başçısı Xaləddin İsgəndərovun oğlu, eyni zamanda F.Məmmədovun bacısı oğlu Elnur İsgəndərovdu. Yaxud, hər il dövlət qurumlarının milyonlarla manatlıq tenderinin qalibi seçilən və nizamnamə kapitalı 1 146 020 manat olan "Caspel" MMC-nin qanuni təmsilçisi Quliyev Ceyhun Məhi oğlu mərhum nazirin kürəkəni Namiq Quliyevin qardaşıdır.




İndi isə "AtaSığorta"nın ləğvi və onun sığorta portfelinin başqa bir şirkətə ötürülməsi Fazil müəllimə məxsus şirkətlərin "əl dəyişdirəcəyi" yönündə köhnə təxminlərin aktuallaşmasına səbəb olub. Qarşıdakı dövrdə onun ailə biznesinə daxil olan başqa MMC-lərin də "AtaSığorta" ilə oxşar tale yaşaması mümkündür. Bu sırada ilk ağla gələnlərdən biri Gəncə Beynəlxalq Xəstəxanasıdır.

Məsələ orasındadır ki, bu günlərdə həmin iri tibb müəssisəsinin sahibi olan "Synergy Medical" MMC-nin külli miqdarda borca düşdüyü məlum olub. Bildirildiyinə görə, kommersiya qurumlarının dövlət reyestrindəki məlumatdan adıçəkilən MMC-nin 12 saylı Ərazi Vergilər Baş İdarəsinə 2 938 328.7 manat borcu yarandığı aydınlaşır.

"İtisadiyyat.az" xəbər verib ki, "Synergy Medical" MMC-nin qanuni təmsilçisi Gülnar Polad qızı Paşayevadır. Şirkət mərhum nazirin ailə biznesinin iki aparıcı holdinqindən birinə - "Synergy Group"a (digəri ("AtaHoldinq")ə) daxildir.

KİV-də yayılan məlumatlardan belə aydınlaşır ki, "Synergy Medical" MMC barəsində vergi hesabatını və ya onu əvəz edən arayışı vaxtında təqdim etmədiyi üçün bir neçə dəfə maliyyə sanksiyası tətbiq edilib.

Bütün bunları ümumiləşdirdikdə adıçəkilən şirkətin, eləcə də onun nəzarətindəki ən mühüm müəssisənin - Gəncə Beynəlxalq Xəstəxanasının sonrakı taleyi maraq doğurur. Sözügedən xəstəxana Gəncə, eləcə də ətraf şəhər və rayonların ən böyük özəl hospitalıdır. 2015-ci ilin sentyabrından fəaliyyətə başlayan xəstəxana beş mərtəbədən ibarətdir, ümumi sahəsi 11.887 m?-dir. Hospitalın 27 tibbi bölməsində 50-dən çox yerli və əcnəbi konsultant mütəxəssis həkim çalışır. Hər bir bölmənin müasir tibbi avadanlıq və alətlərlə təchiz edildiyi bildirilir. Burada tibbi xidmətlərin qiymətləri bir çox hallarda Bakıdakı aparıcı özəl klinikalardan geri qalmır.

Ümumilikdə isə mərhum nazirə məxsus "AtaHoldinq" və "Synergy Group"a daxil olan şirkətlərin yaxın gələcəkdəki taleyi maraq doğurur.

***Sənan Mirzə***

# Mərkəzi Bank bu qurumun lisenziyasını ləğv etdi

***"Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununa (Qanun) edilmiş dəyişiklərə əsasən, eləcə də, Mərkəzi Bankın təsdiq etdiyi "2024-2026-cı illərdə maliyyə sektorunun inkişafı Strategiyası"nda müəyyən edilmiş strateji hədəflər çərçivəsində Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin müvafiq Qərarları ilə "Bank olmayan kredit təşkilatlarının fəaliyyətinin prudensial tənzimlənməsi Qaydası" (Qayda) təsdiq edilib.***

"Unikal" bu barədə Mərkəzi Banka istinadən xəbər verir. Qaydaya əsasən, kommersiya hüquqi şəxs formasında yaradılan mövcud və yeni bank olmayan kredit təşkilatlarına kapitalın minimum miqdarı tələbi 1 milyon manat məbləğində müəyyən edilib.

Kapitalın minimum miqdarı tələbinə əməl edilmədiyindən, "Optimal Finance Bank olmayan kredit təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyətinə Mərkəzi Bank tərəfindən icrası məcburi olan göstərişlər verilib. Lakin, ötən dövr ərzində qeyd olunan təşkilat tərəfindən atılan addımlar nəticəsində kapitalın minimum miqdarı tələbinə əməl edilməsi təmin edilməyib. Qeyd olunanları nəzərə alaraq "Bank olmayan kredit təşkilatları haqqında" Qanunun 25.1.4-cü maddəsinə əsasən, fəaliyyətində yol verildiyi pozuntuların aradan qaldırılması barədə Mərkəzi Bankın göstərişlərinə əməl edilməməsi ilə əlaqədar "Optimal Finance Bank olmayan kredit təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin 29.12.2020-ci il tarixli, BKT-37 nömrəli lisenziyası Mərkəzi Bankın İdarə Heyətinin 17 aprel 2026-cı il tarixli Qərarı ilə ləğv edilib.



"Bank olmayan kredit təşkilatları haqqında" Qanunun 25.4-cü maddəsinə əsasən, bank olmayan kredit təşkilatı lisenziyasının ləğv edilməsi haqqında qərarın qüvvəyə mindiyi gündən fəaliyyətini dayandırır və Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən olunmuş qaydada ləğv edilir.

Mərkəzi Bank bank olmayan kredit təşkilatlarının fəaliyyətini requlyativ tələblər əsasında daim nəzarətdə saxlamaqla qanunvericiliklə tələb olunan zəruri addımları atmaqda davam edəcək.



## Regionlarda yaşayan əhalinin illik gəliri açıqlandı

***"Regionların inkişafı ilə bağlı həyata keçirilən siyasət mərhələli şəkildə balanslı iqtisadi inkişafın daha da güclənməsinə gətirib çıxarıb. Belə ki, son illər iqtisadiyyatın regional diversifikasiyası meyilləri daha güclənib. Bu, makro-iqtisadi göstəricilərdə əks olunmaqdadır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə keçirilən konfransda çıxışı zamanı deputat Vüqar Bayramov deyib. O bildirib ki, ölkə üzrə əsas kapitala yönəldilmiş illik 22.1 milyard manatlıq investisiyaların 9.7 milyard manatı, yəni, 44.0 faizi regionların payına düşür:

"Hazırda regionlarda 33 milyard manatdan çox ÜDM formalaşır. Eyni zamanda, ölkə üzrə 62.2 milyard manatlıq pərakəndə ticarət dövriyyəsinin 24.5 milyard manatı regionların payına düşür. Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin yarıdan çoxu artıq regionlarda yerləşib ki, bu da daxili turizimin inkişafı baxımından vacibdir. 2024-cü ildə ölkə üzrə əmək müqaviləsi ilə çalışanların sayı 1 milyon 775 min nəfər olub. Onun 792 min 737 nəfəri regionlarda yaşayaraq fəaliyyət göstərirlər. Bu o deməkdir ki, əmək müqaviləsi ilə işləyənlərin artıq 45 faizi regionlarda çalışırlar. Regionlarda yaşayan əhalinin illik gəlirləri isə 32 milyard manatdan çox olub. İqtisadi siyasət regionların inkişafında dayanıqlığı təmin edib və Bakı ilə bölgələr arasında fərqin mərhələli şəkildə azalmasına səbəb olmaqdadır".

## Bu il yol qəzalarında 140 nəfər həlak olub

***Azərbaycanda 2026-cı ilin yanvar-mart aylarında baş verən avtoqəzalarda 140 nəfər həlak olub.***



"Unikal" xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Bildirilib ki, 2026-cı ilin yanvar-mart aylarında 252 yol-nəqliyyat hadisəsi baş verib, bu hadisələr nəticəsində 319 nəfər zərər çəkib.

Onlardan 140 nəfər həlak olub, 179 nəfər isə yaralanıb. Hadisələrin 42,9 faizi gecə, 37,7 faizi gündüz, 19,4 faizi isə toran vaxtı baş verib. Yol-nəqliyyat hadisələrinin 32,9 faizi həftənin şənbə və bazar günlərinə təsadüf edib.

Yol-nəqliyyat hadisələrinin 84,1 faizi yaşayış məntəqələrində baş verib. Bütün yol-nəqliyyat hadisələrinin 42,1 faizi nəqliyyat vasitələrinin və piyadaların, 37,3 faizi bir neçə nəqliyyat vasitəsinin, 20,6 faizi isə bir nəqliyyat vasitəsinin iştirakı ilə baş verib. Yol-nəqliyyat hadisələri nəticəsində həlak olanların 75,7 faizini, yaralananların isə 71,5 faizini kişilər təşkil edib.

15_27 IYUI-QARA.qxd 4/23/2026 8:39 PM Page 9



## Türkiyə nümayəndə heyəti Qarabağda




***Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin (MMU) rektor müavini professor Talat Canbolatın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən xəbərə görə, səfər çərçivəsində türkiyəli qonaqlar işğaldan azad edilmiş ərazilərdə olub, bir sıra tarixi abidələri ziyarət ediblər. Nümayəndə heyətinə Ermənistan silahlı qüvvələri tərəfindən xalqımıza qarşı törədilən vandalizmin nəticələri və dağıntılar, eləcə də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq və yenidənqurma işləri haqqında ətraflı məlumat verilib. Həmçinin hərbi qulluqçular 44 günlük Vətən müharibəsi və digər uğurlu əməliyyatlarla bağlı xatirələrini bölüşüblər.

N hərbi hissəsini ziyarət edən türkiyə nümayəndə heyəti burada yaradılan şərait ilə tanış olub. Qonaqlara torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edən bölmələrin döyüş yolu haqqında geniş məlumat verilib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, Türkiyə MMU-nun nümayəndə heyəti səfər proqramına uyğun olaraq Əlahiddə Ümumqoşun Ordunu ziyarət edəcəklər.

## Paytaxt Bakıdan başqa şəhərə köçürülə bilər? - Açıqlama



***"Bəzən deyirlər paytaxt köçürülsün, amma biz paytaxtın köçürülməsini rasional hesab etmirik".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, deputat Azər Əmiraslanov deyib.

O bildirib ki, paytaxtın köçürülməsi əvəzinə regionların inkişafı həyata keçirilməlidir: "İşğaldan azad edilmiş ərazilərimizə Böyük qayıdış regionların inkişafını tamamlayan böyük sənəddir. Eyni zamanda Naxçıvanda regional idarəetmə təkmilləşir, bələdiyyələr inkişaf edir".

Komitə sədri qeyd edib ki, iqtisadi rayonlaşma sahəsində yeniliklər həyata keçirilir: "İqtisadi rayonların sayı 10-dan 14-ə çatdırılıb ki, bu da regionların inkişaf etdirilməsi tədbirlərinin daha kompleks şəkildə inkişaf etdirilməsinə imkan verir".

## Vilayət Eyvazov Göyçayda vətəndaş qəbulu və sıra baxışı keçirəcək



***Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 26-da Göyçay rayonunda növbəti vətəndaş qəbulu və polis orqanları, o cümlədən daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirəcək.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, Göyçay Rayon Polis Şöbəsinin inzibati binasında baş tutacaq qəbulda Göyçay, İsmayıllı, Şamaxı, Ağdaş, Ucar, Qobustan və Ağsu rayonlarının sakinləri iştirak edə bilərlər.

Qəbula yazılmaq istəyən vətəndaşlar nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı aprelin 25-dək yaşadıqları ərazinin polis orqanına, habelə nazirliyin "E-Polis" mobil tətbiqi, e-xidmet.mia.gov.az elektron xidmət portalı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı aprelin 26-da 08:00-da Göyçay Olimpiya İdman Kompleksində keçiriləcək.

# Daha bir məmurun ağlasığmaz sərvəti

### Ortabab vəzifəlilər belə məmur həbslərindən dərs almırlar

***Azərbaycanda daha bir məmurun ağlasığmaz sərvəti ortaya çıxıb. Üstəlik, həmin məmur öz ranqına görə az qala üçüncü dərəcəli vəzifə sahibi olub. Söhbət Sumqayıtda işdən uzaqlaşdırılan baş memardan gedir.***

Yola salmaq üzrə olduğumuz həftə yayılan xəbərlərdə iddia edilir ki, onun və yaxın qohumlarının adına rəsmiləşdirilmiş çoxsaylı bahalı avtomobillər və daşınmaz əmlak mövcuddur. Siyahıda yer alan nəqliyyat vasitələri arasında müxtəlif markalı avtomobillər üstünlük təşkil edir.



Belə ki, Sumqayıt şəhər Memarlıq və Şəhərsalma Şöbəsinin müdiri olmuş Rəşad Əhmədalıyevin cəmi 3 il ərzində həddindən artıq varlandığı vurğulanır; musavat.com-un əldə etdiyi məlumatda iddia olunur ki, o, sözügedən varidatı qanunsuz yollarla qazanıb. Sitat: "Məsələn, köhnə binaların 1-ci mərtəbəsində obyekt qapılarının açılışı üçün icazə 50 min manat olub. Son 3 il ərzində 100-dən artıq belə obyekt açılıb. Bundan başqa, fərdi ev tikintilərinə məcburi 5 min manat, sənədsiz torpaqlarda tikilən evlər üçünsə 10 min manat alınıb. Öz qohum-əqrəbaları, dost tanışları üçünsə xüsusi imtiyazlar var". O da vurğulanır ki, keçmiş baş memarın bir neçə bahalı maşını, torpaq sahələri, obyektləri var.

Maraqlı iddialardan biri də Rəşad Əhmədalıyevin icra hakimiyyətinin xidməti maşınının qeydiyyat nömrəsini qanunsuz dəyişməsi ilə əlaqədardır. "Volkswagen Passat" markalı avtomobilə məxsus olan 50 AA-007 nömrə nişanını özünə məxsus olan, 2024-cü ildə aldığı şəxsi avtomobili olan "Toyota Camry" markalı maşınına bağlaması ilə əlaqəli idi.

Həmçinin iddia olunur ki, sabiq baş memarın istifadəsində və ya ailə üzvlərinin adına rəsmiləşdirilmiş Hyundai Santa Fe, Lexus (yeni model), Range Rover (iki fərqli yeni model), Toyota Camry və Chevrolet markalı cip tipli avtomobillər var. Bildirilir ki, bu avtomobillərin hamısı qara rəngdədir. Ehtimallara görə, bu, bir növ "status simvolu"dur.

Digər bir iddiaya əsasən, Sumqayıt şəhərində baş memarın yaxınlarının adına rəsmiləşdirilmiş çoxsaylı köşk, ticarət obyektləri və mənzillər də mövcuddur. Həmin obyektlərin bir hissəsinin icarəyə verildiyi, digərlərinin isə kommersiya məqsədilə istifadə olunduğu ehtimal edilir.

Maraqlıdır ki, R.Əhmədalıyev yuxarıdakı iddiaların mediada yayılmasının üstündən bir neçə gün keçməsinə baxmayaraq hələ də deyilənlərə münasibət bildirməyib.

Məsələnin maraqlı tərəfi də var: əgər sabiq baş memarın varidatı barədə deyilənlər doğrudursa, sual yaranır - ranqına görə üçüncü, dördüncü dərəcəli bir məmur, özü də çox qısa vaxtda (cəmi 3 ilə!) necə bu qədər sərvət sahibinə çevrilə bilər? Əslində biz oxşar hallarla əvvəllər də rastlaşmışıq. Yadımıza düşənlərdən bəzilərini xatırladaq: vaxtilə "Bakı Lift-Təmir" İstehsalat Birliyinin baş direktoru Qüdrət Şükürovun qızına yarım milyon manatlıq toy etdiyi, öz katibəsinin adına 350 min dollarlıq avtomobil aldığı aydınlaşmışdı; yaxud, Dənizkənarı Bulvar İdarəsinin İdarə Heyətinin sabiq sədri İlqar Mustafayevin nəhəng "əmlak imperiyası"?na sahib olduğu aydınlaşmışdı, bir neçə ilin içərisində 12 milyon manat mənimsədiyi, böyük ehtimallarla elə həmin pullar hesabına da Xətai rayonunda - Ağ Şəhərdə, Xudu Məmmədov və Nəcəfqulu Rəfiyev küçələrində 7 lüks mənzil, elə həmin rayonda, Ağ Şəhərdə Mərkəzi Bulvar küçəsində yerləşən, sahəsi 715,3 m? olan böyük obyekt, Səbail rayonunda - Üzeyir Hacıbəyli və Neftçi Qurban Abbasov küçələrində 3 mənzil; Şüvəlanda 2 villa tipli bağ evi və s. və i.a. sahibinə çevrildiyi ortaya çıxmışdı.

Və hər dəfə bu sür "sərvət ifşalarından" sonra cəmiyyətdə istər-istəməz sual yaranır: hətta bir rayonun, şəhərin baş memarı, hansısa idarə müdiri belə ağlasığmaz dərəcədə oliqarxlaşa bilirsə, gör onda daha yüksək vəzifəlilərin ayağında nə qədər mal-mülk var?!

Daha acınacaqlısı odur ki, xüsusilə 7-8 il öncədən başlayaraq, ölkədə çox sayda - üstəlik, aralarında vaxtilə nazir olmuş birindən nazir müavini, icra başçısı işləyənədək! - vəzifə sahibi rüşvət, korrupsiya cinayətlərinə görə həbsə atılıb, əksəriyyəti hələ də dəmir barmaqlıqlar ardındadır, lakin biz hətta 2-3-cü dərəcəli məmurların belə yenə də oxşar cinayətləri törətməsinin, oturduğu kreslodan sui-istifadə edib qısa vaxtda qanunsuz şəkildə varlanmasının şahidinə çevrilirik. Belələrinin bu cəsarəti hardan aldığını anlamaqda insan çətinlik çəkir. Doğrudanmı, sərvət hərisliyi adamın gözünü o qədər kor edir ki, bir sıra məmurlar "gözü çıxmış qardaşlarından" dərs almır, hər kəs üçün ən qiymətli şey olan azadlığını itirməkdən belə qorxmurlar?!

Əgər elədirsə, korrupsiyaya qarşı mübarizədə real nəticələr əldə etmək, bu bəlanın kökünü qazımaq üçün hansı addımlar atılmalıdır ki, effektiv olsun, məmur korpusunda qanun xofu yaratsın?

Bax indi mütəmadi qarşımıza çıxan, getdikcə adiləşən, az qala norma kimi qəbul olunan sərvət ifşaları ilə bağlı ən düşündürücü sual bu olmalıdır.

***Toğrul Əliyev***

15_27 IYUl-QARA.qxd 4/23/2026 8:40 PM Page 10



# Sabiq nazir müavininin yolu ilə gedənlərin 15 milyon manatlıq oyunu

## Olimpiya idman komplekslərində hələ də büdcə pullarını havaya sovuranlar var

***Hesablama Palatası Gənclər və İdman Nazirliyinin tabeliyində fəaliyyət göstərən olimpiya idman komplekslərində (OİK) aparılan audit zamanı ciddi maliyyə pozuntuları və idarəetmə boşluqları müəyyənləşdirib.***

Audit 2022-2025-ci illəri əhatə etməklə 15 milyon manat vəsaiti əhatə edib.

Hesabatda qeyd olunur ki, OİK-lərin fəaliyyəti üzrə strateji planlaşdırma aparılmayıb, tarif siyasəti əsaslandırılmayıb və gəlirlərin böyük hissəsi subsidiyalardan asılı vəziyyətdə qalıb. Bir çox hallarda qiymətlər xərclər nəzərə alınmadan müəyyən olunub.

Eyni zamanda, maliyyə hesabatlarının əksər komplekslərdə tərtib edilmədiyi, gəlirlərin bir hissəsinin rəsmiləşdirilmədən nağd qəbul olunduğu və vergi öhdəliklərinin düzgün yerinə yetirilmədiyi aşkarlanıb.



Qeyd edək ki, Azərbaycanda olimpiya-idman kompleksləri ilə bağlı maliyyə pozuntuları az qala adət halını alıb.

Hələ ötən il məlum olmuşdu ki, Hesablama Palatası tərəfindən Neftçala rayonunun Olimpiya İdman Kompleksinin tikintisi üzrə podratçıya nə az, nə çox düz 287,7 min manat artıq vəsait ödənilib, Goranboy Olimpiya İdman Kompleksinin tikintisi üzrə isə dövlət büdcəsindən ayrılan vəsaitin istifadə və idarə olunması sahəsində aşkar edilmiş hüquqpozmalarda cinayət tərkibinin əlamətlərinin ehtimal olunmasını nəzərə alaraq auditin nəticələrinə dair müvafiq materialların Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsi təklif edilib.

Ümumiyyətlə isə internet üzərindən kiçik bir axtarış aparmaq kifayətdir ki, ölkədə ayrı-ayrı idman-olimpiya komplekslərinin inşasından tutmuş idarə edilməsinədək çoxsaylı yeyinti iddiaları qarşımıza çıxsın. Bu məsələnin kökü isə gənclər və idman nazirinin sabiq müavini İsmayıl İsmayılovun sözügedən vəzifədə olduğu illərə gedib çıxır. Mərhum nazir Azad Rəhimovun zamanında müavin postunu tutmuş İsmayılovun səlahiyyətlərinə sözügedən komplekslərin koordinasiyası da daxil idi. Elə o vaxtlardan da sözügedən idman obyektləri ilə bağlı saysız-hesabsız korrupsiya iddiaları mütəmadi gündəmə gəlirdi.

Daha əvvəlki illərə (xüsusilə 2010-2020-ci illər aralığına) nəzər saldıqda, Hesablama Palatasının apardığı auditlər daha çox tikinti, infrastrukturun qurulması və dövlət əmlakının idarə olunmasındakı sistemli problemləri üzə çıxarmışdı.

Məsələn, 2013-2016-cı illərdə bir çox rayonların (məsələn, Göyçay, Ağcabədi, Saatlı) olimpiya idman komplekslərində aparılan yoxlamalarda tikinti xərclərinin şişirdilməsi, görülən işlərin həcminin sənədlərdə reallıqdan daha çox göstərilməsi, inşaat materiallarının qiymətlərinin bazar qiymətlərindən bir neçə dəfə baha rəsmiləşdirilməsi, bəzi komplekslərin inşasının bitdiyi açıqlansa da, bir çox texniki sistemlərin (ventilyasiya, qazanxana və s.) quraşdırılmadığı üzə çıxmışdı.

2015-2018-ci illərdəki yoxlamalar zamanı isə xüsusilə idman avadanlıqlarının alınmasında korrupsiya şübhələri ortaya çıxmışdı. Məsələn, sözügedən avadanlıqların birbaşa istehsalçıdan deyil, vasitəçi şirkətlər üzərindən 30-50% daha baha qiymətə alınması hallarına rast gəlinmişdi.

Bəzi hallarda bahalı avadanlıqlar alınmasına baxmayaraq, onların illərlə anbarlarda yatıb-qalması və ya mütəxəssis olmadığı üçün istifadə edilməməsi aşkarlanmışdı ki, bu da səmərəsiz xərcləmədən, büdcə vəsaitlərinin hansısa maraqlardan ötrü havaya sovrulmasından başqa bir şey deyildi.

Hələ büdcə pullarının təyinatından kənar istifadəsini demirik!

Yenə ötən illərin yoxlamalarından belə aydınlaşırdı ki, bir çox idman olimpiya komplekslərinin rəhbər şəxslərinin ezamiyyə xərclərinin şişirdilməsi, eləcə də əsaslı təmir üçün nəzərdə tutulan vəsaitlərin cari inzibati xərclərə (məsələn, avtomobil təmiri, yanacaq) az qala adət halını alıbmış.

Üstəlik, sözügedən idman obyektlərində regional səviyyədə keçirilən yarışlar üçün ayrılan vəsaitlərin rəsmiləşdirilməsində də ciddi nöqsanlara yol verildiyi, yeyintiyə, necə deyərlər, "yaşıl işıq" yandırıldığı aydınlaşdırılmışdı.

Azərbaycandakı olimpiya idman komplekslərinin potensialından, resurslarından düzgün (və lazımınca!) istifadə edilmədiyinin, kimlər üçün isə qazanc mənbəyinə çevrildiyinin sübutlarından biri isə Tokio-2020 Yay Olimpiya oyunlarına həm əvvəlki illərlə müqayisədə az idmançı ilə qatılmağımız (cəmi 44 idmançı - məsələn, əvvəlki Rio-de-Janeyro olimpiadasından (2016) 11 idmançı az), həm də son olimpiadalarda ilk dəfə olaraq bir qızıl medal belə ala bilməməyimiz oldu. Bundan sonra Hesablama Palatası Gənclər və İdman Nazirliyində genişmiqyaslı audit apardı, onda da olimpiya idman kompleksləri ilə bağlı ciddi nöqsanlar aşkarlandı. Çox keçmədən isə İsmayıl İsmayılov vəzifəsindən kənarlaşdırıldı.

Aradan illər keçib və Hesablama Palatasının olimpiya idman komplekslərində növbəti dəfə ciddi pozuntular aşkarlaması, 15 milyon manat kimi böyük məbləğdə bir vəsaitin səmərəsiz xərcləndiyinə dair faktlar ortaya çıxarması düşündürücüdür. Belə çıxır ki, zaman dəyişir, lakin sözügedən idman obyektlərinin tikinti, təmir və idarəçiliyi ilə bağlı ümumi vəziyyət dəyişsə də, hələ də bu qurğular ölkə idmanının inkişafından çox, kimlərinsə merkantil maraqlarına xidmət eləməyə davam edir...

***Sənan Mirzə***

# Emin Əmrullayev internat məktəblərinin direktorları ilə görüşdü



***Elm və təhsil naziri Emin Əmrullayev Bakı şəhəri üzrə fəaliyyət göstərən internat məktəblərinin direktorları ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüş zamanı internat məktəblərində təhsil alan valideyn himayəsindən məhrum olmuş, eləcə də sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyə prosesi, onların sosial müdafiəsi, psixoloji dəstək mexanizmləri və cəmiyyətə inteqrasiyası məsələləri geniş müzakirə olunub.

Nazir çıxışında qeyd edib ki, həssas kateqoriyadan olan uşaqların keyfiyyətli təhsilə çıxışının təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu baxımdan internat məktəblərində tətbiq olunan xüsusi təhsil proqramlarının təkmilləşdirilməsi, fərdi yanaşmanın gücləndirilməsi və müasir tədris metodlarının genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Görüşdə həmçinin mövcud vəziyyətin qiymətləndirilməsi aparılıb, internat məktəblərinin maddi-texniki bazasının gücləndirilməsi, müəllim heyətinin peşəkar inkişafı, eləcə də təhsilalanların sosial rifahının yüksəldilməsi istiqamətində görüləcək tədbirlər müzakirə olunub.

Direktorlar tərəfindən səsləndirilən təkliflər dinlənilib, prioritet istiqamətlər ətrafında fikir mübadiləsi aparılıb.

# Məktəblərdə kütləvi yoxlamalar başladı

***Azərbaycanın bir neçə rayonunun məktəblərində yuxarı sinif şagirdləri arasında kütləvi yoxlamalara start verilib.***



"Unikal" xəbər verir ki, yoxlamalar, əsasən, Abşeron rayonu, Sumqayıt şəhəri və ətraf ərazilərdə yerləşən təhsil müəssisələrini əhatə edir.

Hüquq-mühafizə orqanlarının əməkdaşları məktəblərdə şagirdlərin çantalarını və üzərlərində olan əşyaları yoxlayaraq qadağan olunmuş predmetlərin olub-olmamasını araşdırırlar. Bu predmetlərə kəsici-deşici alətlər, tütün məmulatları və digər təhlükəli vasitələr daxildir.

Son günlər müəllimlər valideynlərə müraciət edərək uşaqların məktəbə getməzdən əvvəl çantalarının yoxlanılmasını tövsiyə edirlər. Bildirilir ki, bu tədbirlər məktəblərdə son vaxtlar baş verən insidentlərin artması ilə əlaqədardır.

Gözlənilməz yoxlamalar çərçivəsində yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektorlar dərs zamanı siniflərə daxil olaraq şagirdlər üzərində baxış keçirirlər. Qadağan olunmuş əşyalar aşkar edilən şagirdlər ələ və söhbət üçün ayrılır, hadisə ilə bağlı məktəb rəhbərliyi və valideynlər dərhal məlumatlandırılır.

Xatırladaq ki, bir neçə gün əvvəl Bakının 286 nömrəli orta məktəbində 9-cu sinif şagirdi sinif yoldaşının üzərinə spirt tökərək onu yandırıb. Hadisədən sonra məktəb rəhbərliyi dərhal təcili tibbi yardım çağırıb, zərərçəkənə ilkin yardım göstərildikdən sonra o, xəstəxanaya yerləşdirilib.

Faktla bağlı şübhəli şəxs polis tərəfindən saxlanılıb, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.("Trend")

15_27 IYUI-QARA.qxd 4/23/2026 8:40 PM Page 11



# Rəşad Nəbiyev V "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşdü



***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev V ”Yüksəliş” müsabiqəsinin qalibləri Fərid Hüseynov və Kamran Sadıxlı ilə görüşüb.***

“Unikal” xəbər verir ki, nazir ”X” sosial şəbəkəsində hesabında bildirib.

”Beşinci ”Yüksəliş” müsabiqəsinin qalibləri Fərid Hüseynov və Kamran Sadıxlı ilə Mentorluq proqramı çərçivəsində görüşdük. Qaliblərlə mentorluq dövründə fərdi inkişaf istiqamətləri və peşəkar bacarıqlarının artırılması ilə bağlı fikir mübadiləsi apardıq. Eyni zamanda onların idarəetmə bacarıqlarının gücləndirilməsi və innovativ layihələrdə daha fəal iştirak perspektivlərini müzakirə etdik”, - nazir qeyd edib.

# Milli Kitabxanada Kitab və Müəlliflik Hüququ Gününə həsr olunmuş tədbir keçirilib



***Aprelin 23-də Milli Kitabxanada Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbiri Milli Kitabxananın direktoru professor Kərim Tahirov açaraq iştirakçıları salamlayıb, bildirib ki, Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününün təsis olunması barədə qərar 1995-ci ildə Parisdə UNESCO-nun Baş Konfransında qəbul edilib, 1996-cı ildən etibarən bu əlamətdar gün bütün dünyada, 1997-ci ildən isə Azərbaycanda qeyd olunur.

Professor ölkəmizdə əqli mülkiyyət sahəsinin inkişafına və bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsinə xüsusi diqqət yetirildiyini, Azərbaycan Respublikasının Konstitusiyasında müəlliflik hüququ, əlaqəli hüquqlar və digər əqli mülkiyyət hüquqlarının təsbit olunduğunu diqqətə çatdırıb.

Direktor Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününün qeyd olunmasında əsas məqsədin kitabların keçmişlə gələcək, nəsillər və mədəniyyətlər arasında körpü rolu oynamasını bir daha ictimaiyyətə çatdırmaq olduğunu vurğulayıb, kitab və mütaliənin insanın şəxsiyyət kimi formalaşmasında, mənəvi dünyasının zənginləşməsində, təfəkkür və idrak bacarıqlarının inkişafında mühüm rol oynadığını söyləyib.

Hüquq və İnsan Haqları İnstitutunun əməkdaşı Təranə Əliyeva çıxışında bu günün əsas mesajının sadəcə kitabları sevmək yox, həm də onları qorumaq, müəlliflərin əməyinə hörmət etmək və oxuma mədəniyyətini gələcək nəsillərə ötürmək olduğunu söyləyib, Hüquq və İnsan Haqları İnstitutunun nəşrlərini iştirakçılara təqdim edib və tədbirin təşkilinə görə Milli Kitabxananın rəhbərliyinə təşəkkürünü bildirib.

Tədbirdə Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanmış “23 Aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür” mövzusunda ənənəvi və virtual sərgi (https://anl.az/el/vsb/Umumdunya_Kitab_ve_Muellliflik_Huququ_Gunu/index.htm) iştirakçılara təqdim olunub.

Sonda Hüquq və İnsan Haqları İnstitutunun nəşrləri iştirakçılara hədiyyə edilib.

# "Bu, universitetlərin gələcək inkişafı üçün vacibdir" - Rektor



***”Ali təhsil müəssisələri ali təhsil almağın dəyəri ilə onun iqtisadiyyatda yaratdığı dəyər arasındakı korrelyasiyanın səviyyəsini düzgün anlamalıdırlar, çünki bu, onların gələcək inkişafı üçün vacibdir”.***

”Unikal” xəbər verir ki, bu fikirləri Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev Azərbaycan Dövlət Aqrar Universitetinin təşəbbüsü və Macarıstan Kənd Təsərrüfatı və Təbiət Elmləri Universitetinin birgə təşkilatçılığı ilə keçirilən Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan konfrans çərçivəsində “Elm və təhsildə yaşıl konsepsiyalar”adlı panel müzakirəsində səsləndirib.

# Vilyam Hacıyevə

## 3 milyon manatlıq növbəti şok ittiham

### Məhkəməyədək gedib çıxan “otkat” ixtilafı: İcra Hakimiyyəti üçün inzibati binanın tikintisi ətrafında qalmaqal böyüyür - Sensasiyalı faktlar!

***İmişli Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının tikinti prosesi gecikir. Bunun isə ilginc səbəbi varmış.***

İddialara görə söhbət adıçəkilən rayonun sabiq icra başçısı Vilyam Hacıyevin mənimsəmə faktları ilə əlaqədardır. Belə ki, 2019-cu ildə İmişli Rayon İcra Hakimiyyəti üçün yeni inzibati binanın layihələndirilməsi və tikintisi üçün dövlət büdcəsindən üç milyon vəsait ayrılıb.

“Teleqraf”ın əldə etdiyi məlumata görə, bundan sonra İmişli Rayon İcra Hakimiyyəti ilə Vüqar Məhərrəmovun rəhbəri olduğu ”NTC Company” şirkəti arasında tender müqaviləsi imzalanıb.

Lakin Vilyam Hacıyev şirkətə tikinti üçün ödəniləcək məbləğdən 30 fiaz ”otkat” alıb. 974 193 manat vəsait ”NTC Company” şirkətinin nümayəndəsi Səyalı Səfərov tərəfindən Vilyam Hacıyevin sürücüsü vasitəsilə hazırda həbsdə olan keçmiş icra başçısına çatdırılıb.

Maraqlıdır ki, Vilyam Hacıyevin həbsindən sonra bu işdə zərərçəkmiş kimi tanınan İmişli Rayon İcra Hakimiyyəti sözügedən məbləğin geri alınması üçün məhkəməyə müraciət edib. İmişli RİH iddia ərizəsində 974 min manatın Vilyam Hacıyevin müsadirə edilən əmlaklarının hesabına geri ödənilməsini istəyib. Bütün instansiya məhkəmələri İmişli Rayon İcra Hakimiyyətinin bu tələbini təmin edib. Vilyam Hacıyev isə işi Ali Məhkəməyə qədər daşıyıb, lakin onun kassasiya şikayəti təmin edilməyib.

Onu da bildirək ki, İmişli Rayon İcra Hakimiyyətinin inzibati binasının tikintisi üçün ötən ilin dekabrında da ”NTC Company” şirkəti ilə yarım milyon manatlıq tender müqaviləsi imzalanıb. İmişlinin hazırkı icra başçısı Elçin Rzayevdir.

“Unikal”ın araşdırması zamanı məlum olub ki, bu ilin fevralında İmişli Rayon İcra Hakimiyyəti üçün yeni inzibati binanın tikintisi ilə bağlı satınalma həyata keçirilib. Layihənin icrası isə yenə də “NTC Company” MMC-yə həvalə olunub. Müqavilənin ümumi dəyəri isə 1 milyon 262 min 829 manat təşkil edib.

Maraqlıdır ki, ötən ilin sonlarında da İmişli Rayon İcra Hakimiyyəti üçün yeni inzibati binanın tikintisinə başlanıldığı barədə xəbər yayılıb. Həmin vaxt “İqtisadiyyat.az”ın icra hakimiyyətindən əldə etdiyi məlumat bildirilib ki, tikinti işlərinin icrası “NTC Company” şirkətinə həvalə olunub və onunla müqavilə bağlanılıb. Üstəlik, o da əlavə olunub ki, müqaviləyə əsasən, icra hakimiyyətinin yeni inzibati binasının tikintisi 500.000 manata başa gələcək.

Qəribə vəziyyət yaranıb: belə çıxır ki, 2019-cu ildən indiyədək İmişli Rayon İcra Hakimiyyətinin heç cür tikilmək bilməyən inzibati binası üçün ayrılan büdcə vəsaitlərinin həcmi artıq 5 milyon manatı keçir.

Onu da deyək ki, İmişli rayonu istər Vilyam Hacıyev, istərsə də ondan sonrakı dövrdə yerli rəhbər orqanların keçirdiyi şübhəli dövlət satınalmaları ilə mütəmadi şəkildə gündəmə gəlir. Bunun ən “parlaq” nümunələrindən biri 2024-cü ilə təsadüf edir. Həmin vaxt yerli icra hakimiyyəti şəhid ailələrinin yaşadığı və şəhid adı verilmiş küçələrdə yolların əsaslı təmiri üçün 500.665,74 manat pul ayırmağı nəzərdə tutub. Lakin ölkə başçısının Sərəncamı ilə o zamanlar yeni yaradılan Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi məsələyə müdaxilə edərək rayon icra hakimiyyətinin növbəti qanunsuz əməlinə mane olub. Belə ki, adıçəkilən Agentlik tərəfindən 03 oktyabr 2024-cü il tarixində AİBNDX/SQ-9917/2024 nömrəli qərar qəbul edilib. Məhz həmin qərarda İmişli Rayon İcra Hakimiyyətinin qiymətləri bilərəkdən məqsədli şəkildə şişirtdiyi, xərcləri həddən artıq böyütdüyü qeyd olunub.

Daha diqqətçəkən məqam isə odur ki, bu, eyni ildə sözügedən icra hakimiyyəti tərəfindən eyni uyğunsuzluqlara görə ləğv edilən ikinci tender olub. Belə ki, İmişli şəhərindəki küçələrin abadlaşdırılmasını nəzərdə tutan həmin tender zamanı da xərclərin həddindən artıq şişirdilmiş formada göstərildiyi aydınlaşıb.



Xatırladaq ki, korrupsiya əməlləri ilə ad çıxaran İmişlinin sabiq icra başçısı Vilyam Hacıyev 5 may 2020-ci ildə Dövlət Təhlükəsizliyi Xidmətinin RİH-nin binasında keçirdiyi əməliyyat nəticəsində saxlanılıb. O, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə xüsusilə külli miqdarda mənimsəmədə və rüşvət almaqda təqsirli bilinərək 12 il müddətinə azadlıqdan məhrum edilib. 2024-cü ildə Ali Məhkəmənin qərarı ilə V.Hacıyevin cəzası 12 ildən 8 il 6 aya endirilib.

Son illərdə mediada yayılan məlumatlardan belə aydın olur ki, İmişlidə Vilyam Hacıyevdən sonra da tenderlərin şəffaflığı ilə bağlı ciddi problemlər qalmaqdadır.

***Sənan Mirzə***

15_27 IYUl-QARA.qxd 4/23/2026 8:40 PM Page 12



**5.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan tolerantlıq və birgəyaşayışın simvoludur

## Robert Mobili: "Dini ayinlərin icrası üçün yaradılan şəraitə, azsaylı xalqlara göstərilən diqqət və qayğıya görə prezidentə minnətdarıq"



***Bir neçə gün öncə ölkəmizdə yaşayan provaslav xristianları Müqəddəs Pasxa Gününü qeyd etdilər. Pasxa xristianların ən qədim və sevimli bayramlarından biridir. Çoxkonfensiyalı ölkəmizdə hər il bu bayram təntənəli şəkildə qeyd olunur. Bu il də ötən ildən fərqlənmədi. Azərbaycanda yaşayan xristianlar aprelin 11-dən 12-nə keçən gecə Bakıda və ölkənin müxtəlif bölgələrində yerləşən provaslav məbədlərində Pasxa bayramı münasibətilə xüsusi ibadətlər keçirdilər.***

Qeyd edək ki, Xristian dünyasının ən mühüm və müqəddəs bayramlarından biri hesab olunan Pasxa İsa Məsihin dirilməsini simvolizə edir. Pasxa zamanı insanlar bir araya gələrək həm dini inanclarını ifadə edir, həm də mərhəmət, paylaşma və birlik kimi dəyərləri ön plana çəkirlər. Azərbaycanda Pasxa bayramı yalnız dini bayram deyil, həm də mədəniyyətlərarası müxtəlifliyi özündə birləşdirən bir hadisəyə çevrilib. Daha səlis desək, Azərbaycanda keçirilən Pasxa şənlikləri ölkənin multikultural strukturunu əks etdirir. Dövlət səviyyəsində də Pasxa bayramına xüsusi diqqət yetirilir. Hər il Azərbaycan Respublikasının Prezidenti ölkənin xristian icmasını bu münasibətlə təbrik edir, onlara sülh və firavanlıq arzulayır. Bu, ölkədəki dini dözümlülüyün və vəhdətin bariz nümunəsidir. Kilsələrdə keçirilən gecə ibadətlərindən sonra insanlar bir-birini "Məsih dirildi!" sədaları ilə salamlayır, xeyriyyə tədbirləri təşkil olunur və ehtiyacı olanlara yardımlar edilir. Azərbaycanda Pasxa sadəcə dini bir ritual deyil, həm də dostluq, qardaşlıq və birgəyaşayışın rəmzidir. Müxtəlif millətlərin nümayəndələrinin bir süfrə arxasında əyləşərək bu günü qeyd etməsi Azərbaycanın dünyaya təqdim etdiyi ən gözəl mənəvi dəyərlərdən biridir.

Azərbaycanda yaşayan xristian icması da, ölkəmizdəki multikultral mühitdən razılıqla danışırlar.

Alban-Udi Xristianları İcmasının sədri Robert Mobili "Unikal" qəzetinə açıqlamasında bildirib ki, Azərbaycanda keçirilən Pasxa bayram şənlikləri tolerantlığın bariz nümunəsidir. R. Mobilinin sözlərinə görə aprelin 12-də Qəbələnin Nic qəsəbəsində də Pasxa bayramı təntənəli şəkildə qeyd edilibdir. O, özü də bu bayram tədbirində iştirak etdiyini söyləyib.

"Cotari" alban-udi pravoslav kilsəsində keçirilən tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin, Azərbaycan Respublikası Alban-Udi Xristianları İcmasının nümayəndələri, icmanın üzvləri, müxtəlif rayonlardan gələn çoxsayda qonaqlar və qəsəbə sakinləri iştirak etdilər. Tədbirdə Pasxa bayramının mahiyyətindən, dini ayinlərin icrası üçün yaradılan şəraitdən danışdıq, azsaylı xalqlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlığımızı bildirdik. Bayram münasibətilə şamlar yandırıldı, dualar oxundu və bayram konserti keçirildi. Hər il olduğu kimi, Azərbaycanda yaşayan xristianlar dini bayramları olan Pasxanı təntənəli şəkildə birlik və bərabərlik mühitində qeyd etdilər".

R. Mobili bildirib ki, Nic kəndi tək Azərbaycanda deyil artıq dünyada tolerantlığın kiçik modeli hesab edilir. Onun sözlərinə görə, bu kənddə 3 kilsə, iki məscid fəaliyyət göstərir.

Qeyd edək ki, Azərbaycanda 4000 udin yaşayır ki, onların 300-ü Oğuz və Bakıda qeydiyyatdadır. Dünyada yaşayan udinlərin sayı isə 10 minə yaxındır. Kənddə udinlər öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar.

Azərbaycan tarixən müxtəlif dinlərin və mədəniyyətlərin sülh şəraitində birgə yaşadığı məkan olub. Bu ənənə bu gün də davam edir.

Ölkədə pravoslav, katolik və digər xristian icmaları Pasxa bayramını sərbəst şəkildə qeyd edir, dini ayinlərini yerinə yetirirlər. Dövlət tərəfindən dini azadlıqlara hörmət göstərilir, ibadət yerləri qorunur və bərpa olunur. Eyni zamanda, digər dinlərin nümayəndələri də bu bayrama hörmətlə yanaşır, bu da cəmiyyətdə qarşılıqlı anlayış və hörmətin güclü olduğunu göstərir.

Pasxa bayramının Azərbaycanda qeyd olunması yalnız dini hadisə deyil, həm də multikultural dəyərlərin və tolerantlığın canlı təzahürüdür. Bu mühit müxtəlif icmalar arasında dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edir və ölkənin sosial sabitliyinə töhfə verir. Azərbaycanın çoxkonfessiyalı olması ölkənin tarixi inkişafı və coğrafi mövqeyi ilə sıx bağlıdır. Qədim dövrlərdən etibarən Azərbaycan müxtəlif dinlərin və mədəniyyətlərin qovuşduğu bir məkan olub. Bu səbəbdən burada islam, xristianlıq, yəhudilik və digər dini icmalar uzun illər boyu sülh və qarşılıqlı hörmət şəraitində yaşamışdır.

Müasir Azərbaycanda da bu ənənə qorunub saxlanılır. Ölkə əhalisinin böyük əksəriyyəti müsəlman olsa da, pravoslav, katolik, alban-udi xristianları və yəhudi icmaları öz dini inanclarını sərbəst şəkildə həyata keçirirlər. Dövlət tərəfindən bütün dini konfessiyalara bərabər münasibət göstərilir, onların ibadət yerləri fəaliyyət göstərir və qorunur.

Çoxkonfessiyalı mühit cəmiyyətdə tolerantlığın, multikultural dəyərlərin və qarşılıqlı anlaşmanın güclənməsinə xidmət edir. Bu müxtəliflik Azərbaycanı regionda nümunəvi tolerantlıq məkanı kimi tanıdır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Qarabağda yeni abunəçilər telekommunikasiya xidmətlərinə qoşuldu

***AZCON Holding şirkətlərindən olan "Aztelekom" MMC "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında rabitə və internet xidmətlərinin genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirir.***

"Unikal" xəbər verir ki, azad edilmiş ərazilərdə ümumilikdə 8,905 abunəçi (8,422 ev təsərrüfatı və 483 biznes subyekti) telekommunikasiya şəbəkəsinə qoşulub.

2026-cı ilin yanvar-mart ayları ərzində görülən işlər nəticəsində bu göstərici 1,394 yeni abunəçinin (1,323 ev təsərrüfatı və 71 biznes subyekti) xidmətlərə qoşulması ilə daha da artıb.

Qeyd edək ki, hesabat dövründə işğaldan azad olunmuş ərazilərdə yerləşən 9 şəhər mərkəzi, 29 kənd və qəsəbədə yeni abunəçilərin yüksəksürətli internet və telefoniya xidmətlərinə qoşulması təmin edilib.

"Aztelekom" MMC tərəfindən həyata keçirilən tədbirlər bölgədə mövcud rabitə infrastrukturunun imkanlarının genişləndirilməsinə və əhalinin rəqəmsal xidmətlərə çıxışının artırılmasına yönəlib.

# "SİMA İmza" - vergi ödəyiciləri üçün ən sərfəlisi

***SİMA rəqəmsal imza İnternet Vergi İdarəsinə girişin ən sərfəli və təhlükəsiz yolu kimi vergi ödəyicilərinin əsas rəqəmsal köməkçisinə çevrilib.***




"Unikal" xəbər verir ki, Dövlət Vergi Xidmətinin rəqəmsal ekosistemində edilən dəyişikliyə əsasən, e-taxes.gov.az portal fəaliyyətini dayandırıb. Artıq bütün elektron vergi xidmətləri new.e-taxes.gov.az platforması üzərindən təqdim olunacaq. Yeni portalın əsas üstünlüyü "SİMA İmza" ilə də girişin mümkünlüyüdür.

Hazırda SİMA rəqəmsal imza ilə portaldakı bütün əsas vergi xidmətləri əlçatandır. İstifadəçilər "SİMA İmza" mobil tətbiqini yükləyib, qeydiyyatdan keçməklə dərhal biznes imzası əldə edə və 100-dən artıq xidmətdən yararlana bilərlər.

Qeyd edək ki, istifadəçilər "SİMA İmza" tətbiqində biznes imzası əldə edən zaman 6AYPULSUZ promokodunu yazmaqla ilk 6 ay ərzində elektron imzadan tamamilə ödənişsiz istifadə edə bilər. Daha sonra abunəliyi istəyə görə, aylıq 2.40 AZN, 1 illik 25 AZN, 3 illik isə 55 AZN-ə yeniləmək mümkündür. Tariflərdə heç bir əlavə ödəniş və gizli xərc yoxdur.

"SİMA İmza" haqqında

SİMA yeni nəsil rəqəmsal imza AZCON Holding şirkətlərindən olan "AzInTelecom" tərəfindən 2022-ci ildə yaradılıb. Hazırda "SİMA İmza" tətbiqinin endirilmə sayı 6 milyondan çoxdur. Rəqəmsal imzanı hər hansı xidmət məntəqəsinə getmədən və fiziki daşıyıcıya ehtiyac olmadan mobil tətbiq vasitəsilə əldə etmək mümkündür.



## Laçın kanat yolunun inşası bu il tamamlanacaq

***Laçın şəhərində inşa olunan kanat yolu layihəsinin həyata keçirilməsi istiqamətində işlər sürətlə davam edir.***

"Unikal" xəbər verir ki, layihənin 2026-cı ilin sonunadək istifadəyə verilməsi planlaşdırılır.

Bu məqsədlə ərazidə yaşıllıqların köçürülməsi, kanat yolunun dayaqlarının və terminal sahələrinin bünövrə işlərinin aparılması, eləcə də zəruri avadanlıqların çatdırılması istiqamətində intensiv işlər həyata keçirilir.

Layihənin həyata keçirilməsi bölgədə turizm infrastrukturunun inkişafına və ziyarətçilər üçün yeni imkanların yaradılmasına töhfə verəcək.

## Qəbul imtahanına 65 mindən çox şəxs qeydiyyatdan keçib



***Ali təhsil müəssisələrinə qəbul imtahanının 2-ci mərhələsinin 1-ci cəhdində iştirak etmək istəyən abituriyentlərin qeydiyyatı davam edir.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının 2-ci mərhələsinin 1-ci cəhdində iştirak etmək istəyən abituriyentlər 29 aprel saat 23:59-dək şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə (//eservices.dim.gov.az/erizebak/cehd1/) daxil olaraq imtahan vermək istədikləri ixtisas qrupunu seçib qeydiyyatdan keçməlidirlər.

23 aprel saat 10:30-a olan məlumata əsasən I ixtisas qrupu üzrə 23782 , II ixtisas qrupu üzrə 18863 , III ixtisas qrupu üzrə 18161 , IV istisas qrupu üzrə 4881 olmaqla, ümumilikdə isə 65687 abituriyent qeydiyyatdan keçib.

İmtahanda yalnız göstərilən tarixədək qeydiyyatdan keçmiş abituriyentlər iştirak edə bilərlər.

Qeyd edək ki, ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsinin birinci cəhdi II və III ixtisas qrupları üzrə mayın 24-də, I və IV qruplar üzrə isə iyunun 7-də keçiriləcək. III ixtisas qrupu üzrə həm DT, həm də TC altqrupunu seçən abituriyentlər üçün coğrafiya fənni üzrə əlavə imtahan iyunun 7-də keçiriləcək.

## İncəsənət məktəblərinə qəbul olmaq istəyənlərin nəzərinə!

***27 aprel 2026-cı il tarixindən etibarən ölkə üzrə incəsənət məktəblərinə 2026/2027-ci tədris ili üzrə şagird qəbulu müsabiqəsinin əyani imtahan mərhələsi başlanır. Qəbul prosesi müvafiq normativ qaydalara uyğun olaraq şəffaf və obyektiv meyarlar əsasında həyata keçirilir.***

"Unikal" xəbər verir ki, imtahanlar musiqi, rəssamlıq və xoreoqrafiya istiqamətləri üzrə təşkil olunur və namizədlərin yaradıcılıq potensialının, estetik zövqünün, eləcə də ilkin peşə bacarıqlarının qiymətləndirilməsini nəzərdə tutur.

Cari tədris ili üzrə 1-ci sinfə qəbul üçün elektron sistem vasitəsilə, o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə ümumilikdə 14 733 müraciət qeydə alınıb. Namizədlərdən 12 954 nəfər musiqi, 1 210 nəfər rəssamlıq, 569 nəfər isə xoreoqrafiya istiqaməti üzrə imtahanlarda iştirak edəcək.

İmtahan tarixləri, keçirilmə məkanları və digər zəruri məlumatlar valideynlər və namizədlərə qeydiyyat zamanı təqdim olunmuş elektron poçt ünvanları, SMS bildirişləri, eləcə də "MyCulture" vahid şəxsi kabineti vasitəsilə çatdırılıb.

Qeyd edək ki, incəsənət məktəblərinə qəbul uşaqların erkən yaşlardan yaradıcılıq potensialının üzə çıxarılması, onların peşəkar istiqamətləndirilməsi və milli mədəni mühitin davamlı inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

# Bu şəxslərə ömürlük həbs cəzası verilə bilməz

***Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən cinayətlər ictimai təhlükəliliyi və xarakterinə görə dörd kateqoriyaya bölünür.***



"Unikal"ın məlumatına görə, bu barədə Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi Nahid Mirzəyev məlumat verib.

Hakimin sözlərinə görə, cinayətlər böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır olmaqla təsnif edilir. O bildirib ki, qəsdən adam öldürmə cinayətləri xüsusilə ağır cinayətlər kateqoriyasına daxildir və bu əməllərə görə nəzərdə tutulan cəzalar kifayət qədər sərtdir.

Qeyd olunub ki, qəsdən adam öldürmə hallarında yalnız azadlıqdan məhrumetmə cəzası tətbiq edilir. Belə ki, sadə adam öldürmə cinayətlərinə görə cəza 9 ildən 14 ilədək müddəti əhatə edir. Əgər cinayət tamah və ya xuliqanlıq niyyəti ilə törədilərsə, bu halda 14 ildən 20 ilədək və ya ömürlük azadlıqdan məhrumetmə cəzası təyin oluna bilər.

Nahid Mirzəyev əlavə edib ki, yetkinlik yaşına çatmayan şəxslərlə bağlı qanunvericilik daha humanist yanaşmanı nəzərdə tutur. Belə ki, 14 yaşdan 18 yaşadək şəxslər qəsdən adam öldürmə cinayəti törətdikdə, cinayətin ağırlığından asılı olmayaraq, onlara maksimum 10 il müddətinə azadlıqdan məhrumetmə cəzası verilə bilər.

Hakim həmçinin vurğulayıb ki, ömürlük azadlıqdan məhrumetmə cəzası müəyyən kateqoriyadan olan şəxslərə tətbiq edilmir. Bunlara yetkinlik yaşına çatmayanlar, qadınlar və barəsində məhkəmə hökmü çıxarılanadək 65 yaşı tamam olmuş şəxslər daxildir.

Məlumata görə, qəsdən adam öldürməyə görə məhkum olunan şəxslər cəzalarını ciddi rejimli cəzaçəkmə müəssisələrində çəkirlər. Əgər şəxs əvvəllər də cinayət törədibsə və residiv halları mövcuddursa, cəza xüsusi rejimli müəssisədə icra oluna bilər. Ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilən şəxslər isə cəzalarını həbsxanada çəkirlər.

# Azərbaycanda 865 uşaq özünə yeni ailə tapıb - Rəsmi

***2025-ci il ərzində 296, 2026-cı ilin 3 ayı ərzində isə valideyn himayəsindən məhrum olmuş 61 uşaq sosial xidmət müəssisələrinə və sığınacaqlara yerləşdirilib.***



Bu barədə Modern.az-ın sorğusuna cavab olaraq Sosial Xidmətlər Agentliyindən məlumat verilib.

Qeyd edilib ki, həmin uşaqların ailə qayğısı ilə əhatə olunması, reinteqrasiyası, həmçinin övladlığa və himayədar ailələrə verilməsi istiqamətində mütəmadi və məqsədyönlü işlər aparılır.

Əlavə olaraq bildirilib ki, qeyd olunan dövrdə əcnəbilər tərəfindən övladlığagötürmə faktı olmayıb.

"2019-cu ildən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan övladlığagötürmə mexanizmi uşaqların ailə mühitinə adaptasiyasına, onların sosial və emosional ehtiyaclarının qarşılanmasına, təhlükəsiz və stabil mühitdə böyüməsinə şərait yaradır. Bu dövr ərzində ümumilikdə 865 uşaq övladlığa verilib.

Ötən dövrdə valideynin zərərli vərdişlərinin olması, uşağa qayğı göstərməkdən imtina etməsi və ya bunu təmin etmək imkanının olmaması, valideynin cəzaçəkmə müəssisəsində olması, tüfeyli həyat tərzi sürməsi və digər səbəblər uşaqların dövlət himayəsinə götürülməsinə zərurət yaradıb", - deyə rəsmi məlumatda vurğulanıb.

# Agentlik Kür çayının daşmasının səbəbini açıqladı

***Kür çayının Zərdab rayonunun Şıxbağı, Əlibəyli və Mehdilər kəndlərinin ərazisindən keçən hissəsində suyun birinci bəndi yararaq, bir neçə evi və əkin sahələrini su basdığı barədə məlumat verilmişdir.***

ADSEA-dan "Unikal"a verilən məlumata görə, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin proqnoz məlumatlarına əsasən, gursululuq dövründə (aprel, may, iyun ayları) su ehtiyatlarının ötən illərlə müqayisədə daha çox olacağı gözlənilir. Bu nəzərə alınaraq, Mingəçevir su anbarı və Şəmkir su anbarında ehtiyat su həcmlərinin saxlanılması məqsədilə Mingəçevir su anbarından Kür çayının aşağı axınına saniyədə 700 kubmetr həcmində su buraxılışı həyata keçirilir.

Buraxılan suyun maneəsiz və təhlükəsiz şəkildə Xəzər dənizinə ötürülməsi üçün Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində fəaliyyət göstərən Regional Su Meliorasiya Xidməti tərəfindən müvafiq qabaqlayıcı tədbirlər görülür.Eyni zamanda bildiririk ki, Zərdab rayonunun qeyd olunan kəndlərində müşahidə olunan su basma halları əsasən çayın mühafizə zonasında inşa edilmiş fərdi yaşayış evlərinin həyətyanı sahələrini əhatə etmişdir. Bu hal son günlərdə intensiv yağıntılar nəticəsində Kür çayına tökülən



Türyançay, Girdmançay, Qarqarçay və digər çaylarda suyun səviyyəsinin artması ilə əlaqədardır.Hazırda bir sıra ərazilərdə Kür çayında suyun səviyyəsində azalma müşahidə olunur. Xidmətin rəhbərliyi ərazilərdədir, yerli istismar idarələri tərəfindən mütəmadi monitorinqlər aparılır və vəziyyət tam nəzarət altındadır.

15_27 IYUl-QARA.qxd 4/23/2026 8:40 PM Page 14



# Qəhrəmanlığı dillərdə dastan olan Vətən sevdalısı



***Hərb tariximizi nşanlı səhifəsi olan 44 günlük haqq savaşımızda vətənpərvərlik, rəşadət göstərib əbədiyyətə qovuşan əhrəmanlardan biri də Elvin Tərlan oğlu Məmmədovdur.***

12 dekabr 1992-ci ildə Biləsuvar rayonunun Xırmandalı kəndində dünyaya göz açan Elvin həyatı dərk edəndən Vətənini ruhunda, canında yaşatmaqla ürəkdən ona bağlanıb. Şəhidlik zirvəsinə gedən yolun ilk başlanğıcı elə bu ilahi sevgi ilə qoyulub. Qanı bahasına Vətəni alınmaz qalaya çevirən Elvin 28 yaşında ölməzlik qazanıb. Onun qısa ömür yolu xalqın yaddaşına qazanılan parlaq qələbəmizin qəhrəmanlıq simvolu kimi yazılıb.

Nəyin bahasına olursa-olsun düşmənə əsir düşən Qarabağımızı azad görmək istəyi 2011-ci ildə Elvin Məmmədovu ordu sıralarına aparıb. Döyüş bölgəsində hər qarışını özünə əziz bildiyi doğma Azərbaycanın keşiyində durub. Bütün çətinliklərə sinə gəlməklə nümunəvi xidməti ona hörmət qazandırıb. Vətənə sevgisini sözdə deyil, ən çətin təlimlərdə əldə etdiyi uğurları ilə bildirib. Hərbi nizamnamənin tələblərini vaxtında və dəqiq yerinə yetirdiyini, yorulmadan çalışdığını görən hərbi hissə rəhbərliyi onu müxtəlif vaxtlarda təltif edib.

Bir qayda olaraq Elvinin qəlbi düşməndən qisas almaqla alışıbyanıb. 2012-ci ildə əsgərliyi başa vurub. Lakin Vətən sevgisi Elvini yenidən orduya qayıtmağa sövq edib. 2013-cü il tarixindən o, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlar Qərargahının" N" saylı hərbi hissəsində Xüsusi Təyinatlı Dəstədə müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi yağıdan alacağı öcə hazırlaşıb. Döyüş əmrini gözləməklə gözünü qırmadan, isti-soyuq bilmədən səngərlərdə durub. Nəzəri biliklərlə bərabər, həm də keçdiyi təlimlərdə mükəmməl olaraq hərbin sirlərinə yiyələnib. Zabitlərin, əsgərlərin yanında düşmənlə sona qədər vuruşub qisas alacağına and içib.

Köksündə qəhrəman ürəyi döyünən Elvin Məmmədovun illərlə arzuladığı an- 2020-ci ilin 27 sentyabrı yetişib. Ali Baş Komandan tərəfindən düşmənin təxribatına cavab olaraq əkshücum əmri verilib. Azərbaycan əsgərləri Elvin də onların arasında tərəddüd etmədən odun-alovun içinə düşmənə qarşı vuruşa giriblər. Özü də qalib gəlmək əzmi ilə...

İlk gündən ağır müharibə meydanında Elvin sərrast atəşlə erməni dığalarına ciddi itki verib. Düşmənlə üz-üzə, mərmi yağışı altında irəli getməklə onunla çiyin-çiyinə vuruşan əsgərləri də yalnız qələbəyə doğru aparıb. Döyüşlərdən hər dəfə zəfərlə çıxanda yağıya qarşı bir daha qəddar olub, Vətən eşqli ürəyi qəzəb, nifrət hayqırıb. Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə odlar yurdu, adına can dediyi Azərbaycana olan halal sevgisini torpağa axıtdığı qızıl qanı ilə möhürləyib. Müharibə meydanında ölümcül yaralansa da, erməni dığalarına təslim olmayıb, son nəfəsinə qədər cəsarətlə vuruşub. İntiqam almayınca can vermək istəməyib. Oktyabrın 3-də döyüşə-döyüşə şəhadətə yüksəlib. Beləcə, şərəfli ölümü bir ailənin övladını böyük bir millətin qürur yerinə çevirib. Dövlətdə öz qəhrəman oğlunu-Elvin Məmmədovu ölümündən sonra "Vətən uğrunda", Cəbrayılın və Füzulinin azadlığına görə medallarına layiq görüb.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*



# TAİB üzvlərinin daha bir uğuru

***Bu günlərdə "Azərsun Holdinq"in dəstəyi ilə keçirilən "Azərbaycan dilinin rəqəmsal ensiklopediyası: Vikipediya25" tədbirdə Türk Ağsaqqalları Arasında Əlaqələrin İnkişafı İctimai Birliyinin (TAİB) sədr müavini, diaspor üzrə araşdırmaçı-ekspert Elnur Eltürk və Gənclər Təşkilatının sədr müavini Quliyev Qədir ölkədə "vikipediya"nın inkişafında xidmətlərinə görə, "Vikimedia Azərbaycan" İstifadəçi Qrupunun sədri Elgün Atalıyev və qrupun sədr müavini Aida Aslanova tərəfindən təşəkkürnamə ilə təltif ediliblər.***

Onu da qeyd edək ki, E.Eltürk ölkədə "vikipediya" hərəkatının əsasını qoyanlardan biri hesab edilir. Bir vaxtlar onun təşkilatçılığı ilə könüllü qruplar yaradılıb. Həmin qruplar Vikipediyanın Azərbaycandilli bölməsinin zənginləşməsində əvəzsiz töhfələr veriblər.

# Qusar rayonu üzrə bəzi demoqrafik göstəricilər

***2026-cı yanvarın 1-i vəziyyətinə Qusar rayonunun əhalisi 103245 nəfər olmuşdur. Əhalinin 23,1 faizi şəhər, 76,9 faizi isə kənd yerlərində yaşayır. Əhalinin ümumi sayından 50,7 faizini kişilər, 49,3 faizini isə qadınlar təşkil edir.***

2025-ci ildə Ədliyyə Nazirliyinin rayon qeydiyyat şöbələri tərəfindən 979 doğulan körpə qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 10,0-dan 9,5-ə düşmüşdür. Keçən ildə 596 ölüm halı qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici 5,6-dan 5,8-ə qədər artmışdır.

Ötən ildə Ədliyyə Nazirliyinin rayon qeydiyyat şöbələri tərəfindən 456 nikah və 168 boşanma halı qeydə alınmış və 2024-cü ilə nisbətən əhalinin hər 1000 nəfərinə nikahların sayı 4,3-dən 4,4-ə artmış, boşanmaların sayı isə 1,8-dən 1,6-ya düşmüşdür.

*Qusar Rayon Statistika İdarəsinin rəis müavini Rafik Mahmudov*

# 2025-ci il üzrə Yevlaxda əmək bazarının vəziyyəti haqqında statistika

***2025-cü ilin yanvar-noyabr aylarında məşğul əhalinin 12355 nəfərini muzdla işləyənlər təşkil edir.***

Muzdla işləyənlərin 2026 nəfəri və ya 16.4 faizi maddi istehsal sahələrində, 10329 nəfəri və ya 85,6 faizi xidmət sahələrində çalışırlar.

Muzdla işləyənlərin 63,9 faizi dövlət sektorunda, 36,1 faizi isə qeyri-dövlət sektorunda çalışırlar.




Muzdla işləyənlərin 7,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 7,7 faizi sənaye sahəsində, 1,1 faizi tikinti sahəsində, 27,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində, 3,1 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 0,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində, 0,6 faizi informasiya və rabitə sahəsində, 1,2 faizi maliyyə və sığorta fəaliyyəti sahəsində, 0,1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahəsində, 0,2 faizi peşə, elmi və texniki fəaliyyət sahəsində, 4,0 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi sahəsində, 7,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat sahəsində, 27,1 faizi təhsil sahəsində, 7,4 faiz əhaliyə səhiyyə və sosial xidmətinin göstərilməsi sahəsində, 4,5 faiz istirahət, əyləncə və incəsənət fəaliyyəti sahəsində, 0,3 faizi isə digər xidmətlərin göstərilməsi sahəsində olmuşdur.

2025-cü ilin yanvar-noyabr aylarında orta aylıq nominal əməkhaqqı 686,3 manat təşkil etmiş və 2024-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə 11,6 faiz çox olmuşdur.

*Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi Xalidə Quliyeva*

# 2025-ci ildə Ağdaş rayonunda demoqrafik vəziyyət

***2025-ci ildə rayon əhalisinin sayı 470 nəfər və ya 0,4 faiz artaraq 2026-cı il yanvar ayının 1-i vəziyyətinə 108053 nəfərə çatmışdır. Əhalinin 54009 nəfərini (50,0 faizini) kişilər, 54044 nəfərini (50,0 faizini) qadınlar, 34345 nəfərini (31,8 faizini) şəhər, 73708 nəfərini (68,2 faizini) isə kənd sakinləri təşkil etmişdir.***

2025-ci ildə Ədliyyə Nazirliyinin rayon qeydiyyat şöbəsi tərəfindən 1140 doğulan körpə qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici 10,6 olmaqla eyni təşkil etmişdir.

Ötən il rayonda 694 ölüm halı qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici 6,0-dan 6,4-ə qədər artmışdır.

2025-ci ildə Ədliyyə Nazirliyinin rayon qeydiyyat şöbəsi tərəfindən 523 nikaha daxil olma və 234 boşanma halları qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 5,2-dən 4,9-a, boşanmaların sayı isə 2,3-dən 2,2-yə düşmüşdür.

2025-ci ildə Daxili İşlər Nazirliyinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün rayona 24 nəfər gələn qeydiyyata alınmışdır.

*Ağdaş Rayon Statistika İdarəsi*

15_27 IYUl-QARA.qxd 4/23/2026 8:40 PM Page 15



## Latviya Prezidentinin Azərbaycana səfəri başa çatdı

***Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 23-də başa çatıb.***

”Unikal” xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Latviya Prezidenti Edqars Rinkeviçsi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola saldılar.

## Makronun Ermənistana səfər etməsinin səbəbi açıqlandı

***Fransa prezidenti Emmanuel Makronun Ermənistana səfəri zamanı strateji tərəfdaşlıq sənədi imzalanacaq.***

”Unikal” xarici mətbuata istinadən xəbər verir ki, bunu ölkənin xarici işlər nazirinin müavini Vahan Kostanyan deyib. ”Makronun səfərinin gündəliyi müxtəlif sahələrdə, xüsusən də təhsil, hərbi-texniki əməkdaşlıq və süni intellekt sahələrində əməkdaşlıq sənədlərinin imzalanması ilə zəngin olacaq”, - deyə o Ermənistan İctimai Televiziyasına verdiyi müsahibədə bildirib.

Xatırladaq ki, Fransa prezidenti Emmanuel Makron mayın 5-də Ermənistana dövlət səfəri edəcək.

***Gülayə Mecid***

## ABŞ Hərbi Dəniz Qüvvələrinin komandanı istefa verdi

***ABŞ Hərbi Dəniz Qüvvələrinin komandanı Con Felan istefa verib.***

”Unikal” xəbər verir ki, bu barədə Pentaqonun sözçüsü Şon Parnell məlumat verib. Felanın müavini Hanq Kao Dəniz Qüvvələri komandanının səlahiyyətlərini müvəqqəti olaraq icra edən təyin olunub. ”Axios” vəziyyətlə tanış mənbələrə istinadən yazıb ki, onun istefası Pentaqon rəhbəri Pit Heqsetlə fikir ayrılıqları ilə bağlıdır.

***Ağarza Elçinoğlu***

## Zelenski: “Xarici hərbi qüvvələrin mövcudluğu Rusiyanı yeni hücumdan çəkindirər”

***Ukrayna Prezidenti Volodimir Zelenski öz ölkəsində bilavasitə Rusiya ilə toqquşma xəttində xarici qoşunların yerləşdirilməsini dəstəkləyir.***

Zelenski bunu CNN-ə müsahibəsində bəyan edib.”Xarici qoşunların toqquşma xəttində yerləşdirilməsi Rusiya üçün yeni müharibəyə başlamağı çox təhlükəli edərdi. Onlar dəstək qüvvələrindən, bazalardan və beynəlxalq nümayəndələrdən qorxurlar”, - Zelenski vurğulayıb.

Ukrayna dövlətinin başçısı hesab edir ki, ABŞ Prezidenti Donald Tramp, Çin sədri Si Cinpin, Hindistanın Baş naziri Narendra Modi və digər nüfuzlu dünya liderləri Rusiya Prezidenti Vladimir Putinə bu müharibəni dayandırmalı olduğunu deməlidirlər.

”Mən heç kimi tərəf seçməyə məcbur etmirəm. Lakin əgər biz müharibəni bitirmək istəyiriksə, Putinə haqlı olmadığını deməliyik. Mən kompromis üzərində qurulmuş dialoqların təsirli olduğuna əmin deyiləm”, - o izah edib.

## İsrail 200 milyon dollarlıq silah alır

***İsrail Müdafiə Nazirliyi müdafiə şirkəti ”Elbit Systems”dən təxminən 200 milyon dollar dəyərində qabaqcıl hava sursatı sifariş edib. Bu satınalmalar İrana qarşı hərbi əməliyyatların bir hissəsidir.***

”Unikal” xəbər verir ki, bu barədə şirkət açıqlama yayıb. Qeyd olunur ki, ”Elbit Systems” ”hava silahları sahəsində texnoloji liderdir” və İsrail Müdafiə Nazirliyi ilə uzun müddətdir ki, tərəfdaşdır. Şirkətin sözlərinə görə, onun sursatları İsrail Hərbi Hava Qüvvələrinin hava üstünlüyünü təmin edən amillərdən biridir.”Haaretz” qəzetinin məlumatına görə, İsrail Müdafiə Nazirliyi razılaşmanın ”silah sektorunda müstəqilliyi” gücləndirməyə və ”təcili döyüş ssenariləri”nə və ”intensiv onillik təhlükəsizliyin” hazırlığını artırmağa yönəldiyini açıqlayıb. İsrailin müdafiə naziri İsrael Katz isə bildirib ki, razılaşma ölkənin sursat təchizatında özünütəminatını gücləndirmək strategiyasının bir hissəsidir.

Bu alışlar fonunda, Qəzzadakı müharibə səbəbindən İsrailə silah embarqosu tətbiq etmək üçün beynəlxalq çağırışlar davam edir. Qəzza Səhiyyə Nazirliyinin məlumatına görə, 7 oktyabr 2023-cü ildən bəri İsrailin hücumları nəticəsində 72.652 nəfər həlak olub, daha 172.320 nəfər yaralanıb.

***Gülayə Mecid***

# "Yaradılmış sülh qarşılıqlı etimada əsaslanır" - Qriqoryan

***”Yaradılmış sülh qarşılıqlı etimada əsaslanır”.***

”Unikal” xəbər verir ki, bunu Ermənistan Respublikası Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan deyib.




O, ”Delfi İqtisadi Forumu” çərçivəsində Yunanıstan Respublikası Baş nazirinin milli təhlükəsizlik müşaviri Tanos Dokos və Moldova Respublikası Prezidentinin milli təhlükəsizlik müşaviri Stanislav Sekrieru ilə birlikdə ”Strateji ayırıcı xətlər: Avropanın Şərq Qonşuluğunda münaqişələrin idarə olunması və dayanıqlığın artırılması” adlı panel müzakirəsində iştirak edib.

Qriqoryan çıxışında regional təhlükəsizlik vəziyyətinə toxunub, Ermənistanla Azərbaycan arasında bərqərar olmuş sülhün əhəmiyyətini vurğulayıb və onun institusionallaşdırılmasına yönəlmiş işdən danışıb. Bu kontekstdə Təhlükəsizlik Şurasının katibi bərqərar olmuş sülhün qarşılıqlı etimada əsaslandığına əminliyini bildirib.

O, həmçinin blokadanın qaldırılmasının vacibliyindən danışaraq, artıq əldə edilmiş razılaşmaların həyata keçirilməsi prosesinə və yaradılacaq iqtisadi imkanlara toxunub.

***Ağarza Elçinoğlu***

# "Paşinyan haqlı idi" - Sarkisyandan etiraflar

***”Bəli, Nikol Paşinyan haqlı idi - o, sona qədər getməyə hazır idi və qırmızı xətləri yox idi, mənim namizədliyim irəli sürülməməli idi”.***

”Unikal” xəbər verir ki, bunu Ermənistan Respublikasının 3-cü prezidenti Serj Sarkisyan istefasının səkkizinci ildönümü münasibətilə verdiyi bəyanatda deyib.

O, çətin danışıqlar vəziyyətində getməyinin fəlakətə səbəb olacağını xalqa izah edə biləcəyini düşünərkən yanıldığını deyib: ”Sizə siyasətçi kimi deyil, bir erməni kimi, həyatı və taleyi bu torpaqdan, sudan, bu ölkədən ayrılmaz olan bir insan kimi müraciət edirəm. Partiyamız artıq qarşıdan gələn seçkilərdə iştirak etməmək qərarını açıqlayıb. Bu, sadəcə siyasi mövqe deyil, həm də vahid, düşünülmüş və əsaslandırılmış tarixi bir qərardır.

Həyatım boyu həm doğru, həm də yanlış qərarlar vermişəm. Ən doğru və çətin qərarım ”öz vədimi pozmaq” və 2018-ci ildə Baş nazirliyə namizəd olmaq idi. Təəssüf ki, bu, həm də mənim ən böyük səhvim idi. Çünki namizədliyimin məqsədinin hakimiyyəti qorumaq deyil, Qarabağ və Ermənistanın təhlükəsizliyini təmin etmək olduğunu xalqımıza izah edə bilmədim.

Bəli, Nikol haqlı idi: Mən bunu izah edə bilmədim, amma o, xalqımızı aldatmağı bacardı”.

Sarkisyan bildirib ki, 2018-ci ildə Baş nazirliyə namizədliyi nəticəsində çox şey itirib: ”Başa düşülməyimdən xalqım tərəfindən rədd edilməyimə qədər.



Ermənistanı kökündən qoparan, diz çökdürən, borca batıran və yalanlarla dolduran qrup getməlidir. Alternativ ölkəmiz, xalqımız və gələcək nəsil üçün dəhşətlidir”.

***Ağarza Elçinoğlu***

# "Tələsməyə dəyməz" - Tramp

***ABŞ Prezidenti Donald Tramp İranla müharibənin bitməsi üçün ”heç bir zaman çərçivəsi” olmadığını bildirib və qərarının siyasi mülahizələrdən təsirləndiyinə dair iddiaları rədd edib.***

”Unikal” xəbər verir ki, bu barədə CNN məlumat yayıb.



ABŞ prezidenti noyabr ayında keçiriləcək ABŞ-nin ara seçkilərindən əvvəl müharibəyə son qoymaq istədiyinin ”yalan” olduğunu söyləyib və İranla atəşkəsə nail olmaq üçün ”vaxt təzyiqi” olmadığını vurğulayıb.

”İnsanlar ara seçkilərə görə buna son qoymaq istədiyimi deyirlər, amma bu doğru deyil”, - deyə Tramp bildirib və əlavə edib ki, administrasiya ”Amerika xalqı üçün yaxşı bir razılaşma əldə etmək” istəyir.

Müharibənin nə vaxt bitə biləcəyi soruşulduqda, Tramp ”Tələsməyə dəyməz” ifadəsini işlədib.

***Gülayə Mecid***

# İran ABŞ-yə kömək edən ölkələri məsuliyyətə cəlb etdi

***İranın BMT-dəki daimi nümayəndəsi Əmir Səid İrəvani BMT-yə və Təhlükəsizlik Şurasına məktublar göndərərək bildirib ki, ABŞ İrana qarşı hücumlar hazırlamaq və həyata keçirmək üçün bir neçə Fars körfəzi ölkəsinin ərazisi və hava məkanından istifadə edib.***



”Unikal” İran mediasına istinadən xəbər verir ki, sözügedən ölkələr Bəhreyn, Qətər, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanıdır.

İran həmçinin iddia edib ki, BƏƏ-nin vəziyyətində Hörmüz boğazındakı və Fars körfəzindəki adalardakı hədəflərə endirilən zərbələr zamanı hərbi təyyarələr və dronlardan istifadə etməklə hava məkanının birbaşa pozulması halları olub.

Tehran bu ölkələri mehriban qonşuluq prinsiplərinə riayət etməyə və ərazilərinin İrana qarşı istifadəsinə icazə verməməyə çağırıb və mümkün nəticələrə görə onları məsuliyyətə cəlb edib.

***Gülayə Mecid***

15_27 IYUl-QARA.qxd 4/23/2026 8:40 PM Page 16



# "Avropanın ən güclüsüyük" - Mikayıl Cabbarovdan təbrik



***Azərbaycan Güləş Federasiyasının prezidenti Mikayıl Cabbarov Albaniyanın Tirana şəhərində keçirilən Avropa çempionatında komanda hesabında birinci olan yunan-Roma güləşi millisini təbrik edib.***

"Unikal" xəbər verir ki, qurum rəhbəri bu barədə "X" hesabında paylaşım edib.

M.Cabbarov komandamızı Avropanın ən güclüsü adlandırıb: "Biz Avropanın ən güclüsüyük! Albaniyanın paytaxtı Tiranada keçirilən Avropa çempionatında yunan-Roma güləşi üzrə milli komandamızın növbəti möhtəşəm uğuru hər birimizi sevindirir və qürurlandırır. Həsrət Cəfərovun (67 kq) ardıcıl 4-cü dəfə Avropa çempionu olaraq tarix yazması, Qurban Qurbanovun (82 kq) titulunu qoruyaraq yenidən zirvəyə yüksəlməsi böyük əzmin, zəhmətin və peşəkarlığın bariz nümunəsidir.

Rəşad Məmmədov (55 kq), Nihat Məmmədli (60 kq) və İslam Abbasovun (87 kq) qazandığı bürünc medallar da komandamızın döyüş ruhunu bir daha nümayiş etdirdi. Bu əlamətdar uğur münasibətilə idmançılarımızı, onların məşqçilərini və ailələrini səmimi qəlbdən təbrik edir, Azərbaycan idmanının beynəlxalq arenada qazandığı bu qələbələrin davamlı olmasını arzulayıram".

# Zəfər şəhidinin xatirəsinə həsr olunmuş idman yarışı keçirilib

***44 günlük haqq savaşımızda yağıya qarşı son nəfəsinə qədər qəhrəmanlıqla döyüşüb adını tarixə yazan Vətən oğullardan biri də Ümüd Qasımzadədir.***

Cəlilabad rayonu, Göytəpə şəhərində dünyaya göz açan bu igid şəhidlik zirvəsinə ucalanda 19 yaşında idi. Şərəfli ölümü ona elə bu yaşda qalmaqla əbədi bir ömür bəxş etdi. Həmçinin, milyonların ürəyinə köçən, ölümsüzlüyə yovuşan igid dövlət tərəfindən "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda" və digər medallara layiq görülüb. Vətən sevdalısı Ümüd cismən aramızdan getsə də, həmişə böyük ehtiramla xatırlanır.

Onu da bildirək ki, Ümüd Qasımzadə hələ orta məktəbdə oxuduğu zaman idmanın ağır atletika növünə maraq göstərib və Cəlilabad rayon Gənclər və İdman İdarəsinin nəzdində fəaliyyət göstə-



rən Uşaq-Gənclər İdman Məktəbimdə məşq edib. Cəmiyyətdə yaxşı idmançı kimi ad qoymuş cəlilabadlı atletin uğurlarına gəldikdə isə o, müxtəlif vaxtlarda respublika və beynəlxalq səviyyəli yarışların iştirakçısı və mükafatçısı olub. Belə ki, gənclər arasında Azərbaycan çempionatında 2019 və 2020-ci illərdə gümüş medallarla pərəstişkarlarını sevindirib. Digər yarışlarda da adı qaliblər sırasında çox çəkilib.

Zəfər şəhidi yaşasaydı, ömrünün 25-ci ilini yola salardı. Bu münasibətlə Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi, Ümüd Qasımzadə adına Ağır Atletika İdman Klubunun birgə təşkilatçılığı ilə Cəlilabad rayon Göytəpə şəhər 2 saylı tam orta məktəbinin idman zalında Ümüd İlqar oğlu Qasımzadənin xatirəsinə həsr olunmuş ağırlıqqaldırma idman növü üzrə rayon turniri keçirildi. 8 çəki dərəcəsi üzrə 32 nəfər idmançının iştirak etdiyi turnir olduqca maraqla qarşılandı. Əvvəlcə sinəsini Vətənə sipər edib şəhadətə qovuşan qəhrəmanın həyat və şərəfli döyüş yolundan qürurla danışdılar. Sonra idmançılar öz güclərini göstərməkdən ötrü ştanqlara yaxınlaşdılar.

Daha güclü olan idmançılar Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi tərəfindən diplom və medallara layiq görüldülər.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# "Mançester Siti" liderliyə yüksəldi

***İngiltərə Premyer Liqasında XXXIV turun oyunları keçirilir.***

"Unikal" xəbər verir ki, ikinci oyun günündə 2 qarşılaşma baş tutub. "Bornmut" doğma meydanda "Lids Yunayted"i qəbul edib. Görüş 2:2-lik bərabərliklə nəticələnib. Çempionluğa yaxından təsir edəcək digər matçda "Mançester Siti" "Bernli" səfərinə yollanıb.

Matçın taleyini 1 qol həll edib. Haaland 5-ci dəqiqədə vurduğu qolla "şəhərlilər"ə vacib 3 xal qazandırıb.

Beləliklə, Premyer Liqada aylar sonra lider dəyişib. "Arsenal" 2-ci pilləyə yuvarlanıb, "Siti" ilk pilləyə yüksəlib.

Hər iki komandanın aktivində 70 xal olsa da, ümumi göstəricilərdə Mançester təmsilçisi rəqibini qabaqlayır.

# Dörd qadın güləşçimiz AÇ-da mübarizəyə başlayır

***Albaniyanın paytaxtı Tiranada keçirilən Avropa çempionatında bu gün Azərbaycanın daha 4 qadın güləşçisi xalça üzərinə çıxacaq.***

"Unikal" xəbər verir ki, təsnifat mərhələsində Jalə Əliyeva (57 kq) almaniyalı Amori Andriçlə üzüzə gələcək.

Ruzanna Məmmədova (62 kq) Ukrayna təmsilçisi İlona Prokopevnyuku sınağa çəkəcək.

Birgül Soltanova (65 kq) 1/4 finalda Krista İnce ilə güləşəcək.

Günay Qurbanova (59 kq) isə bürünc medal uğrunda görüşdə Marta Getmanova (UWW) ilə qarşılaşacaq.

# "Təmiz penalti idi" - "Qarabağ"ın qapıçısı

***"Qarabağ"ın qapıçısı Fabian Buntiç ötən gün Azərbaycan kubokunun yarımfinalında "Sabah"a 1:2 hesabı ilə uduzduqları matçdakı hakim idarəçiliyindən danışıb.***

"Qafqazinfo" xəbər verir ki, təcrübəli qolkiper son dəqiqələrdə baş hakim Rəvan Həmzəzadənin ağdamlıların penaltisini vermədiyini bildirib: "Burada, ümumiyyətlə, şərhə ehtiyac yoxdur. Çünki hamı gördü ki, top ələ dəymişdi. Təmiz penalti idi".

O, matçdan sonra baş verən qalmaqal barədə isə bunları deyib: "Hər şey göz qabağında idi. Hakim səhvləri yekunda gətirib belə hallara çıxarır".

# Boksçumuzdan Dünya kubokunda növbəti qələbə



***Azərbaycan boksçusu Nəbi İsgəndərov (70 kq) Braziliyanın Fosdu-İquasu şəhərində keçirilən Dünya Kubokunda növbəti qələbəsini qazanıb.***

"Unikal" Azərbaycan Boks Federasiyasına istinadən xəbər veri ki, milli üzvü 1/8 finalda Murodjon Aşuraliyevlə (Tacikistan) üz-üzə gəlib.

Hər 3 raundu xeyrinə bitirən boksçu yekunda 5:0 (30:27, 30:27, 30:27, 30:27, 29:28) hesabı ilə qalib gəlib. O, sabah 1/4 finalda Farux Toxtassunovla (Qazaxıstan) gücünü yoxlayacaq.

Qeyd edək ki, Dünya kubokunda İsgəndərov millimizin 1/4 finalda mübarizə aparacaq 4-cü boksçusu olub. Daha bir idmançımız isə sözügedən mərhələyə vəsiqə üçün bu gün rinqə çıxacaq.

# Onlar da İngiltərə Premyer Liqasını tərk edəcəklər

***2025/26 mövsümünün sonunda İngiltərə Premyer Liqasını tərk edəcək ikinci komanda məlum olub.***

"Unikal" xəbər verir ki, 34-cü turda "Mançester Siti"yə uduzan "Bernli"nin (0:1) liqadan düşəcəyi dəqiqləşib.

Bu komanda 34 turdan sonra 13 xalla 17-ci sıradadır.

Qeyd edək ki, daha əvvəl "Vulverhempton"un liqanı tərk edəcəyi dəqiqləşib.

# "Çelsi"də baş məşqçi vəzifəsinə əsas namizəd müəyyənləşdi



***Ötən gün Liam Roseniorla yollarını ayıran "Çelsi"də baş məşqçi vəzifəsinə əsas namizəd müəyyənləşib.***

QOL.az xəbər verir ki, bu haqda "TalkSPORT" məlumat yayıb.

London təmsilçisi komandanı "Bornmut"un çalışdırıcısı Andoni İraolaya həvalə etməyi planlaşdırır. O, "Çelsi" üçün əsas namizəddir.

Potensial namizədlər arasında "Nyukasl"dan Eddi Hou, "Portu"dan Françesko Farioli də var. Klub həmçinin Filipe Luis və Edin Terziçi də nəzərdən keçirir.

Xatırladaq ki, "Çelsi" hazırda Premyer Liqanın turnir cədvəlində 34 oyundan sonra 48 xalla 7-cidir.

# "Barsa"dan növbəti qələbə

***İspaniya La Liqasında XXXIII turun oyunları davam edir.***

"Unikal" xəbər verir ki, lider "Barselona" çempionluq yolunda növbəti 3 xalını qazanıb.

Doğma meydanda "Selta Viqo"nu qəbul edən kataloniyalılar matçdan 1:0-lıq qələbə ilə ayrılıb. Görüşdə yeganə qolu Lamin Yamal vurub. Xallarının sayını 82-yə yüksəldən "Barsa" turnir cədvəlinin vahid lideridir.

Ən yaxın izləyicisi "Real Madrid" 73 xalla 2-ci pillədə qərarlaşıb.